25 iyun 2021 №47 (1824) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Hərbi qulluqçuların təltif olunması haqqında sərəncamlar imzalanıb

Prezident İlham Əliyev 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində Azərbaycana tarixi Zəfər qazandırmış şanlı Ordumuzun zabit və əsgər heyətini orden və medallarla təltif edib.

Dövlət başçısının iyunun 23-də imzaladığı sərəncamlarla 2020-ci ilin Vətən müharibəsində döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Xatırladaq ki, işğaldan azad olunmuş ərazilərimizin adı ilə bağlı olan bu medallarla hərbi qulluqçuların böyük bir qrupu Vətən müharibəsindən sonra, dövlət başçısının 2020-ci il 24, 25 və 29 dekabr tarixlərində imzaladığı sərəncamlarla təltif olunmuşdu.

Prezident iyunun 24-də həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Qarabağ" ordeni, "Azərbaycan Bayrağı" ordeni, 3-cü dərəcəli "Rəşadət" ordeni, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunması haqqında sərəncamlar imzalayıb.

## "Gülüstan" sarayı memarlıq üslubu saxlanılmaqla yenidən qurulub

Bakıdakı əzəmətli "Gülüstan" sarayı özünəməxsus memarlıq üslubu saxlanılmaqla yenidən qurulub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 24-də "Gülüstan" sarayında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.



Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1979-1980-ci illərdə inşa edilən "Gülüstan" sarayı təkcə Azərbaycanda deyil, keçmiş Sovet İttifaqında ən gözəl arxitektura nümunələrindən hesab olunurdu. Burada tarixi əhəmiyyət kəsb edən bir çox tədbirlər keçirilib.

Dövlət başçısının tapşırığı ilə yenidən qurulan "Gülüstan" sarayında 600 yerlik əsas zal, həmçinin "Şərq" zalı və konfrans zalı müasir səviyyədə yenidən qurulub. Saray yenilənmiş görkəmdə, amma öz tarixi koloritini saxlamaqla qapılarını qonaqların üzünə açır.



## Kanadadan göndərilən xəncərlər

### Silah ustası soydaşımız əl işlərini Milli Xalça Muzeyinə hədiyyə edib

Kanadada yaşayan soydaşımız, tanınmış silah ustası Emin Məmmədov iki qiymətli əl işini Azərbaycan Milli Xalça Muzeyinə bağışlayıb. İyunun 24-də muzeydə məşhur silahsazın hədiyyə etdiyi xəncərlərin təqdimatı keçirildi. Mərasim 26 İyun – Silahlı Qüvvələr Gününə həsr olunmuşdu.

Tədbiri giriş sözü ilə açan Milli Xalça Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova təqdim olunan nümunələrlə bağlı məlumat verdi. Bildirdi ki, Azərbaycanın ənənəvi bədii silah işi ustası Emin Məmmədovun muzeyə hədiyyə etdiyi xəncərlərdən biri Şamaxı silahsazlıq ənənələri əsasında hazırlanıb. Xəncərin qını böyük maraq doğurur. Onun yuxarısında ibadət edən zadəgan kişi, aşağı hissəsində isə milli geyimli bəy və gəlin, həmçinin zəngin nəbati naxışlar həkk olunub. Xəncərin tiyəsinin hər iki üzündə bir ədəd oxluq var. Burada kətəbələrin içərisində ərəb əlifbası ilə xəncər ustasının adı – "Emin Məmmədov" və "Azərbaycan" sözləri həkk olunub.

davamı səh. 2-də

# Mədəniyyət naminə sülh

### Mədəniyyət Nazirliyinin irəli sürdüyü qlobal kampaniyanın təqdimatı keçirildi

İyunun 23-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasının təqdimat mərasimi keçirildi. Tədbirdə Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos, ölkəmizdəki diplomatik korpusun əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.



Mədəniyyət Nazirliyinin İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Məryəm Qafarzadə tədbir iştirakçılarını salamlayaraq təqdimatın proqramı haqqında məlumat verdi. Bildirdi ki, 3 hissədən ibarət tədbirdə layihə haqqında məlumat veriləcək, beynəlxalq təşkilatların rəhbərlərinin videomüraciəti təqdim olunacaq və daha sonra tədbir nazir Anar Kərimov və BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinosun iştirakı ilə panel müzakirələrlə davam edəcək.

Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadənin moderatorluğu ilə keçən tədbirdə əvvəlcə "Mədəniyyət naminə sülh" qlobal kampaniyasının məqsədi, hədəfləri, fəaliyyət istiqamətləri barədə məlumat verildi.

Aparat rəhbəri bildirdi ki, kampaniyanın əsas məqsədi Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud vəziyyətin, dağıdılmış infrastrukturun və mədəniyyətə qarşı törədilmiş soyqırımının dünyaya çatdırılmasına nail olmaqdır. Həmçinin dünyanın müxtəlif münaqişə regionlarında mədəni irsin qorunmasının orada sülh yaradılması vasitəsilə mümkün ola biləcəyinin, mədəni həyatın canlanmasında sülhün mühüm rol oynadığının, habelə ölkəmizin işğaldan azad olunmuş ərazilərində sülhün bərqərar olması ilə mədəniyyətin və həyatın dirçəlməsinin başqa regionlara da nümunə ola biləcəyini dünyaya çatdırmaqdır.

Sonra Böyük Britaniyanın Sülh, Etimad və Sosial Münasibətlər İnstitutu İdarə Heyətinin sədri, professor Mayk Hardi və İCESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin videomüraciətləri dinlənildi.

davamı səh. 3-də

# Zəfər ruhlu 26 İyun

26 İyun Azərbaycan Silahlı Qüvvələr Günüdür. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə 1918-ci ilin 26 iyun tarixində Milli Ordunun əsasını qoyan ilk qoşun birləşməsi – Əlahiddə Azərbaycan Korpusu yaradılıb. Mövcud olduğu qısa müddətdə ilk respublikamızın suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasında müstəsna rol oynayan Milli Ordu 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən süquta uğradılandan sonra ləğv edildi...



1918-ci il




2020-ci il

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Milli Ordunun yenidən qurulması prosesi başlandı. Ancaq ilk dövrdə ordu daha çox pərakəndə hərbi birləşmələrdən ibarət idi və gənc respublikanı xarici müdaxilədən qorumaq iqtidarında deyildi. Həmin dövrdə ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunması da, təəssüf ki, bunu təsdiqlədi...

1993-cü ildə hakimiyyətə gələn böyük dövlət xadimi Heydər Əliyev ordu quruculuğunu xüsusilə diqqət mərkəzində saxladı. Azərbaycanın hərbi qüdrətinin artırılması, nizami ordunun yaradılması üçün təxirəsalınmaz addımlar atıldı. Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli fərmanı ilə 26 iyun Azərbaycan Silahlı Qüvvələri Günü elan edildi.

Ordu quruculuğunu davam etdirən, eyni zamanda güclü hərbi sənayenin yaradılmasını qarşıya məqsəd qoyan Prezident, Ali Baş Komandan İlham Əliyevin bu sahədə ardıcıl siyasəti Azərbaycanda yeni dövrün, XXI əsrin Silahlı Qüvvələrinin yaradılmasını təmin etdi. Ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi ilə yanaşı, şəxsi heyətin döyüş qabiliyyətinin, vətənpərvərliyinin yüksədilməsi istiqamətində də mütəşəkkil iş aparıldı. Azərbaycan Silahlı Qüvvələri öz imkanlarına görə dünyanın 50 ən güclü ordusu sırasına daxil oldu. Bu təkcə statistika olaraq qalmadı.

Tarix 2020-ci ilin 27 sentyabrını göstərəndə Azərbaycan Silahlı Qüvvələri "Dəmir yumruq" kimi Ermənistan işğalçı qüvvələrinin başına çaxıldı. Bu ağır zərbəni tək mənfur düşmənin özü yox, onun yaxın-uzaq havadarları da hiss elədi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu XXI yüzilliyin bütün dünyaya səs salacaq bənzərsiz müharibəsində qalibiyyət qazandı. Ermənistanın haqqında miflər uydurulan işğalçı ordusu 44 gündə tar-mar oldu.

davamı səh. 3-də

## Ordumuz – qürur mənbəyimiz

26 İyun milli iftixar ünvanımız olan şanlı Ordumuzun bayramıdır. Azərbaycan Silahlı Qüvvələri Günü bu il 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərlə rövnəqlənib. Bölgələrdəki mədəniyyət müəssisələrində əlamətdar günlə bağlı rəngarəng tədbirlər keçirilir.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mərkəzi kitabxanasında Silahlı Qüvvələr Günü ilə əlaqədar tədbir təşkil olunub. Cəlilabad rayon Mədəniyyət Mərkəzində "Vətən mənə oğul desə..." adlı onlayn konsert proqramı keçirilib. Tədbirdə Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov və idarənin əməkdaşları iştirak ediblər. Yardımlı rayon Mədəniyyət Mərkəzinin musiqiçi kollektivi də Silahlı Qüvvələri Günü münasibətilə onlayn konsert proqramı təşkil edib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin Oxuculara xidmət şöbəsi açıq havada "Ordumuz qürur mənbəyimizdir" başlıqlı tədbir təşkil edib.

Zaqatala rayon Dağlı kənd Folklor evində əlamətdar günlə bağlı keçirilən tədbirdə Vətən müharibəsi iştirakçısı, şücaətinə görə bir sıra




medallara layiq görülən Nihad Yusubov, hərbi xidmətə çağırılmış gənclər və mədəniyyət işçiləri iştirak ediblər. Qəhrəman əsgər döyüş yolu və Zəfər paradında iştirakından söz açıb.

bölgələrdən xəbərlər səh. 4-də

## Türk Şurası turizm nazirlərinin növbəti görüşü Azərbaycanda keçiriləcək

İyunun 24-də Özbəkistanın Kokand şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) Turizm Nazirlərinin 6-cı iclası və turizm üzrə işçi qrupunun 15-ci iclası keçirilib.

İclasda Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Azərbaycan və Türkiyənin turizm sahəsi üzrə rəhbər şəxsləri, həmçinin Türk Şurasının Baş katibi Bağdad Amreyev və təşkilatda müşahidəçi statusa malik Macarıstanın Özbəkistandakı səfiri çıxış ediblər.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev türkdilli dövlətlərin ortaq tarix, dil, mədəniyyətə malik olmasının turizm sahəsində əməkdaşlığa zəmin yaratdığını söyləyib. O, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq işlərinə başlanıldığını qeyd edərək bu ərazilərin böyük turizm potensialı olduğunu vurğulayıb. Bildirib ki, tezliklə Qarabağ yeni regional turizm destinasiyası kimi dünyaya təqdim olunacaq.

İclas iştirakçıları Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini ifadə edərək Qarabağın regional turizm destinasiyası kimi inkişaf etdirməsində ölkəmizə uğurlar arzulayıblar.

İclasda Türk Şurasının turizm nazirlərinin növbəti, 7-ci görüşünün Azərbaycanda keçirilməsi barədə qərar qəbul olunub.

Qeyd edək ki, 2015-ci ildə Türk Şurası Turizm Nazirlərinin 2-ci iclası ölkəmizdə keçirilib.

"Əbədilik" – Nizami sözündən musiqiyə




səh. 2

Ölkəmiz ilk dəfə Annecy Beynəlxalq Animasiya Film Festivalında təmsil olunub

səh. 8



Neftçilərin həyatına "Yaxından" baxış

səh. 8



# Azərbaycan hər zaman inkişaf edib və bu inkişaf daha da güclənəcək

## BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Qarabağa səfər təəssüratını Prezident İlham Əliyevlə bölüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinosu qəbul edib.

Ölkəmizə səfər təəssüratını bölüşən qonaq deyib:

– Siz mənim nə qədər şad olduğumu, yenidən burada olmaqdan necə məmnun olduğumu və Sizin ən böyük uğurlarınızdan birini dünən görməkdən nə dərəcədə şad olduğumu təsəvvürünüzə belə gətirə bilməzsiniz. Düşünürəm ki, günüm çox təsirli keçdi.

**Prezident İlham Əliyev:** Bəli, siz hər şeyin şahidi oldunuz.

**Migel Angel Moratinos:** Ağdamda bəyanatımda, yekun bəyanatımda dedim ki, mən bir növ qarışıq hisslər keçirirəm. Birincisi, siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum. Heç nə yoxdur, tamamilə dağıntıdır. İnsan kədərlənir ki, XXI əsrdə belə bir halın necə şahidi olmaq olar? İkincisi, düşünürəm ki, Ağdama səfərim yaxşı keçdi, çünki Sizin xüsusi nümayəndəniz mənə gələcək üçün planı göstərdi. Bu, böyük baxışdır, cənab Prezident. Yolları, insanların məşğul olduğunu, dinamikanı görmək imkanı böyük qürur hissi verir.

Azərbaycan hər zaman inkişaf edib və bu inkişaf daha da güclənəcək. Mən özümü hər zaman Azərbaycanın dostu hesab etmişəm, bu dəfə də Sizinlə olmaqdan və BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi qismində yeni missiyamda Sizin səylərinizi, Xarici İşlər Nazirliyini və Mədəniyyət Nazirliyinizi dəstəkləməyə çalışmaqdan qürur duyuram.

Məni qəbul etdiyinizə və birlikdə görə biləcəyimiz işləri nəzərdən keçirmək imkanına görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev deyib:**

– Ölkəmizə, həmçinin işğaldan azad edilmiş ərazilərə səfər etdiyinizə görə təşəkkür edirəm. Siz öz hissləriniz barədə danışdınız. Düşünürəm ki, hər kəs eyni hissləri keçirir. Mən müharibədən sonra ilk dəfə Ağdama səfər edəndə qəmginlik hissi, kədər hissi, eyni zamanda, şəhərin yenidən qurulması ilə bağlı qətiyyət hissi keçirirdim. Yəqin sizə məlumat verilib ki, bir aydan da az vaxtda biz artıq yenidənqurma prosesinə başladıq. Siz gördünüz, hər şey dağılıb. Eyni zamanda, təkcə Ağdam rayonunda 97 min mina basdırılıb. Biz Ermənistandan yalnız Ağdam rayonu üzrə mina xəritələrini ala bilmişik, digər rayonlarda yüz minlərlə mina var. Onlar xəritələri bizə verməkdən imtina edirlər və bizdə artıq 100-dən çox ölən və yaralanan oldu. Müharibə başa çatandan sonra minalardan, piyada əleyhinə və tank əleyhinə minalardan 30-a yaxın adam həlak oldu, 100-dən çox mülki şəxs yaralandı, o cümlədən bu ayın əvvəlində 2 jurnalist həlak oldu.

Bilirsiniz ki, onlar şəhərləri müharibə zamanı, Birinci Qarabağ müharibəsi zamanı deyil, ondan sonra dağıdıblar. Onlar bunu Birinci Qarabağ müharibəsi dayanandan sonra demək olar ki, 30 il ərzində sistematik şəkildə bir neçə səbəbdən dağıdıblar. Birincisi, bütün tikinti materiallarını götürmək üçün. Çünki evlər sökülmüş, daşlar aparılmışdır. Bu, oğurluq idi. İkinci səbəb azərbaycanlılara geri qayıtmağa imkan verməmək idi. Çünki onlar düşünürdülər ki, total dağıntıdan sonra heç kim qayıtmayacaq. Təkcə şəhərlərdə deyil, kəndlərdə də, - siz digər istiqamətlərə gedəndə, məsələn Cəbrayıla, siz Füzulidə də olmusunuz, - Zəngilanda, Qubadlıda vəziyyət eynidir. Bütün kəndlər, bütün şəhərlər dağıdılıb. İndi biz onları minalardan təmizləməli, həmçinin paralel olaraq yenidənqurmaya başlamalıyıq. Biz artıq bütün səylərimizi toplamışıq, bütün resurslarımızı səfərbər etmişik. Böyük infrastruktur layihələrinə artıq başlanıb. Sizə bəlkə də bununla bağlı məlumat verilib. Biz onları yenidən quracağıq və düşünürəm ki, bu miqyasda dağıntıdan inkişafa, insanlar üçün layiqli yaşayış standartlarına doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik.

Həmin ərazilərə səfər etdiyinizə görə təşəkkür edirəm. Bu, həqiqətən də, sizin müharibədən, uzun müddət davam edən işğaldan əziyyət çəkmiş insanlara rəğbətinizin, dəstəyin göstəricisidir.

## Sivilizasiyalar Alyansının nümayəndə heyəti Bakıdakı erməni kilsəsində olub

Xəbər verdiyimiz kimi, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos ölkəmizdə səfərdədir. Bakıda bir sıra görüşlər keçirən nümayəndə heyəti işğaldan azad olunmuş Ağdam və Füzuli rayonlarına səfər edərək, ermənilərin işğal dövründə törətdiyi vandalizmlə yerində tanış olub.



Nümayəndə heyəti səfər çərçivəsində Bakıdakı Müqəddəs Qriqori erməni kilsəsinə də baş çəkib. Qonaqlara kilsə haqqında məlumat verilib. Bildirilib ki, tolerantlığın yüksək səviyyədə təmin olunduğu Azərbaycanda heç bir ayrı-seçkilik qoyulmadan bütün dini abidələr və ibadət yerləri dövlət tərəfindən qorunur.

Qeyd olunub ki, kilsədə erməni dilində kitablar qorunub saxlanılır. Kitabların arasında bir neçə yüzillik tarixi olan nadir Bibliya nüsxələri də var. Burada saxlanılan kitabların tədqiqat üçün istifadəyə açıq olduğu da diqqətə çatdırılıb.

Vurğulanıb ki, Ermənistan öz ərazisində, eyni zamanda otuz ilə yaxın işğal altında saxladığı Azərbaycan torpaqlarında xalqımıza məxsus bütün tarixi, mədəni abidələri, o cümlədən 60-dan çox məscidi dağıdıb, talan edib, bir çox məscid binalarında heyvanlar saxlanılıb. İşğalçılar bununla təkcə Azərbaycan xalqına qarşı deyil, ümumilikdə İslam sivilizasiyasına, dini dəyərlərə barbar münasibətlərini nümayiş etdiriblər.

Ermənistandan fərqli olaraq, Azərbaycan həmişə bütün dinlərə və mədəniyyətlərə tolerant münasibət göstərib. Bakının mərkəzindəki erməni kilsəsinə münasibət də buna nümunədir. Diqqətə çatdırılıb ki, kilsə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxildir.

Sonra qonaqlar işğaldan azad olunan ərazilərdə Ermənistanın otuz il ərzində məscid binalarına qarşı həyata keçirdiyi barbarlığı əks etdirən fotolardan ibarət sərgiyə baxıblar.

## Mədəniyyət Nazirliyinin əməkdaşları təltif edilib

Hər il iyunun 23-ü Azərbaycan Respublikasında Dövlət qulluqçularının peşə bayramı kimi qeyd edilir. Prezident İlham Əliyev bu münasibətlə iyunun 23-də dövlət qulluqçularının təltif edilməsi haqqında sərəncam imzalayıb.

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə təltif edilənlər sırasında Mədəniyyət Nazirliyinin əməkdaşları da var. Nazirliyin Regional siyasət şöbəsinin müdiri Məmmədov Vüqar Rasim oğlu, Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin müdiri Cəfərov Aslan Qulu oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalları ilə təltif olunublar.

## Teatr rəhbərləri ilə görüş keçirilib

Azərbaycan Respublikası mədəniyyət nazirinin müşaviri Elnur Əliyev və nazirliyin İncəsənət şöbəsinin müdiri Fərəh Acalova iyunun 24-də ölkədə fəaliyyət göstərən teatr müəssisələrinin rəhbərləri ilə görüşüblər.



M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında keçirilən görüşdə öncə Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərdən, Qələbəyə aparan yoldan bəhs olunub.

Görüş mədəniyyət, xüsusilə teatr sahəsində mövcud problemlərin müzakirəsi ilə davam edib. Bu sahədə həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparılıb.

Sonda müəssisə rəhbərlərinə qısa zamanda teatr sahəsində mövcud olan problemlərin həlli istiqamətində təkliflərin hazırlanaraq znazirliyə təqdim edilməsi tapşırılıb.

## İraqla mədəni əlaqələr müzakirə olunub

Azərbaycanın İraqdakı müvəqqəti işlər vəkili Nəsir Məmmədov bu ölkənin parlamenti – Nümayəndələr Məclisi Mədəniyyət komitəsinin sədri xanım Samia Al-Galab ilə görüşüb.

Diplomat İkinci Qarabağ müharibəsi barədə ətraflı məlumat verərək işğaldan azad edilən ərazilərdə mədəni, tarixi və dini abidələrə dəymiş zərər, Ermənistan tərəfindən vandalizmə məruz qalmış abidələr, məscidlər və muzeylər barədə materiallar təqdim edib.

Samia Al-Galab ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün potensialın olduğunu qeyd edərək, 2019-cu ildə Bakıda keçirilən UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında İraq ərazisində yerləşən tarixi Babil şəhərinin Dünya İrsi Siyahısına salınmasında Azərbaycanın göstərdiyi dəstəyə görə öz təşəkkürünü ifadə edib.

Daha sonra o, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Ermənistan tərəfindən törədilmiş vəhşiliklər, mədəni və dini abidələrin dağıdılması məsələsinə toxunaraq, bu vandalizm aktının tək Azərbaycana qarşı deyil, bütün İslam dünyasına qarşı olduğunu vurğulayıb. Komitə sədri İraqın da belə təcrübələrdən keçdiyini, ölkəsinin tarixi abidə və şəhərlərinin İŞİD terror qruplaşması tərəfindən vandalizmə məruz qaldığını xatırladıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## "Əbədilik" – Nizami sözündən musiqiyə

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi ilə hazırlanmış "Eternity" ("Əbədilik") musiqi albomu ictimaiyyətə təqdim olunub.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasından (BMA) verilən məlumata görə, layihənin rəhbəri Türkiyədə yaşayan soydaşımız, Mimar Sinan İncəsənət Universitetinin doktorantı, musiqiçi Vüqar Qurbanov, musiqi redaktoru Əməkdar artist, beynəlxalq müsabiqələr laureatı İlham Nəzərov, prodüseri BMA-nın Xarici tələbələrlə iş üzrə şöbə müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov, dizayneri Səbinə Rəhimzadədir.

Azərbaycan mədəniyyətinin təbliği baxımından aktual olan layihədə Azərbaycanın dahi şəxsiyyəti və böyük şairi Nizami Gəncəvinin sözlərinə Üzeyir Hacıbəyli, Əfrasiyab Bədəlbəyli, Ağabacı Rzayeva, Tofiq Quliyev, Cahangir Cahangirov, Fikrət Əmirov, Süleyman Ələsgərov, Sevda İbrahimova, Gülnaz Abdullazadə, Ceyhun Allahverdiyev, Dilşad Əliyeva tərəfindən bəstələnmiş mahnı-romanslar yer alıb.

Albomda Nizami haqqında, həmçinin təqdim olunan ifalarla bağlı ingilis dilində məlumat verilib.

Musiqi albomunda tanınmış vokal ifaçıları – Xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, Gülnaz İsmayılova, Əməkdar artistlər Fəridə Məmmədova, Anar Şuşalı və İlham Nəzərovun ifalarında musiqi nümunələri yer alıb. İfaçıları fortepianoda Xalq artisti Ülviyyə Hacıbəyova, həmçinin Dilşad Əliyeva, Svetlana Əhmədova, Təranə Məmmədova, Ülviyyə Kazımova, Bəbir Bəbirli müşayiət edib. XXI əsr Azərbaycan vokal məktəbi nümayəndələrinin ifasında həmin romanslar incə zövqlə, yüksək peşəkarlıqla səsləndirilib və onların qəlbləri oxşayan ifalarında Nizami poeziyasının gözəlliyi, dərinliyi öz bütünlüyü ilə əks olunub.

## Kanadadan göndərilən xəncərlər

*əvvəli səh. 1-də*

İkinci xəncərin bədii quruluşu isə Qacar dövrünün silahları üçün xarakterikdir. Onun qını və dəstəyi gümüşlə inkrustasiya olunub, zərif buta və digər nəbati naxışlarla bəzədilib. Xəncərin tiyəsinin hər iki üzündə üç ədəd oxluq var. Burada zərvərəqlə ərəb əlifbası ilə "Allah türkləri qorusun" kəlməsi, kətəbələrin içərisində xəncər ustasının adı və "Azərbaycan" yazısı həkk olunub.

Muzeyin direktoru vurğuladı ki, hər iki xəncərin hazırlanmasında Dəməşq (Suriya) poladı, qızıl inkrustasiya, buynuz sümüyü və s. materiallardan istifadə edilib. Müasir dövrdə qədim sənət ənənələrimizin yaşadığını sübut edən bu dəyərli əsərlər muzeyin "Bədii metal" kolleksiyasına daxil edilib və daimi ekspozisiyada öz yerini tutur.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani Silahlı Qüvvələr Günü münasibətilə tədbir iştirakçılarını təbrik etdi. Bildirdi ki, bu il Silahlı Qüvvələr Günü daha yüksək əhval-ruhiyyədə qeyd olunur: "Çünki Prezident İlham Əliyevin rəhbərliyi ilə Ordumuz 44 gün davam edən Vətən müharibəsində doğma Qarabağımızı düşməndən təmizlədi və düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi".

Sonra müğənni, Əməkdar artist Cahangir Qurbanov "Qələbəyə gedən yollar" mahnısını ifa etdi.

AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru Telman İbrahimov çıxışında silahsazlığın qədim sənət növü olduğunu bildirdi.





Söylədi ki, vaxtilə döyüşlərdə 50-60 minlik ordu vuruşurdu. Bu savaşlarda döyüşçüləri silahlarla məhz silahsaz ustalar təchiz edirdi.

Qafqaz Tarixi Mərkəzinin direktoru Rizvan Hüseynov xəncərlərin Azərbaycan Milli Xalça Muzeyində sərgilənməsini yüksək qiymətləndirdi. Qeyd etdi ki, bizlər bu cür silah növlərini qoruyub gələcək nəsillərə çatdırmalıyıq.

Daha sonra Emin Məmmədovun qızı Aysel Məmmədova çıxış edərək göstərilən diqqətə görə tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

Sonda muzeyə təqdim olunan xəncərlərə baxış keçirildi.

Mərasimdə Pakistan və Mərakeşin ölkəmizdəki səfirləri Bilal Haye və Məhəmməd Adil Embarş, İranın Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Əli Purmərcan, "Rossotrudniçestvo" agentliyinin Azərbaycandakı nümayəndəliyinin – Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) rəhbəri İrek Zinnurov, mədəniyyət və incəsənət xadimləri iştirak edirdi.

Qeyd edək ki, silahsaz Emin Məmmədov Kanadada yaşayıb fəaliyyət göstərsə də, Azərbaycanın bu qədim sənət ənənələrini davam etdirir. O həm bu qəbildən sənətkarlıq nümunələri hazırlayır, həm də tədqiqatı və təbliğatı ilə məşğul olur. Sənətkar eyni zamanda Aleksandr Voloviklə birlikdə nəfis tərtibatı və məlumatların zənginliyi ilə maraq doğuran "The Azerbaijan Armourer's Art" ("Azərbaycan silah sənəti") kitabının müəllifidir. Emin Məmmədov UNESCO tərəfindən bu ilin aprel ayında Parisdə təşkil olunan "Sülh üçün mədəniyyət" (Culture for Peace) müsabiqəsində birinci yerə layiq görülüb.

**NURƏDDİN**

## "Rəqəmsal dövrdə kitab və mütaliə"

İyunun 20-dən 23-dək Qırğızıstanın paytaxtı Bişkekdə "Rəqəmsal dövrdə kitab və mütaliə" mövzusunda 2-ci beynəlxalq konfrans keçirilib. Rusiya, Moldova, Ukrayna, Özbəkistan, Qazaxıstan və digər ölkələrdən nümayəndələrin qatıldığı tədbirdə Azərbaycandan Mədəniyyət Nazirliyi Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin əməkdaşı İslam Hüseynov iştirak edib.

Konfrans iştirakçıları ilk gün Alıkul Osmonov adına Bişkek Milli Kitabxanası ilə tanış olublar. Növbəti gün elmi-praktik konfrans öz işini Karakol şəhərində, İssık-kul (İsti göl) gölünün sahilində davam etdirib.

İslam Hüseynov iyunun 22-də "Pandemiya dövründə oxu" mövzulu məruzəsində qeyd edib ki, rəqəmsal kitabxanalar istifadəçilərə ənənəvi olaraq kitabların çap şəklində saxlanılması əvəzinə elektron obyektlərə və ya rəqəmsal formaya daha çox diqqət ayırmaqla istədikləri məlumatları əldə etməyə imkan verir. Burada məlumatlar rəqəmsal formada saxlanılır, rabitə şəbəkələrinə qoşulmaqla oxucu və tədqiqatçılara lazımlı materialları – qəzet, jurnal məqalələrini, kitabları, digər faylları, şəkilləri, səsyazmaları və videomaterialları tapmaq, çap etmək və şəxsi kompüterlərinə yükləmək üçün əlverişli şərait yaradılır.

Nazirliyin nümayəndəsi çıxışının sonunda informasiya texnologiyalarından müntəzəm və effektiv istifadə edərək rəqəmsal dünyanın nizamları çərçivəsində sürətli inkişafa nail olan insan üçün artıq kompüter istifadəçisi deyil, "rəqəmsal vətəndaş" termininin daha çox aktual olacağını vurğulayıb.

Tədbirdə fəal iştirakına görə İslam Hüseynova Qırğızıstan mədəniyyət, informasiya və turizm naziri Kayrat Oljobayev tərəfindən sertifikat təqdim edilib.

# Mədəniyyət naminə sülh

## Mədəniyyət Nazirliyinin irəli sürdüyü qlobal kampaniyanın təqdimatı keçirildi

əvvəli səh. 1-də

Panel müzakirəsində əvvəlcə nazir Anar Kərimov çıxış edərək bildirdi ki, "Mədəniyyət naminə sülh" qlobal kampaniyası sülh vasitəsilə mədəni irsin qorunmasının, dinc və dayanıqlı sülhsevər cəmiyyətlərin qurulmasının və beynəlxalq sülh sistemlərinin gücləndirilməsinin, eləcə də sülhün əldə olunmasında mədəniyyətin rolu ilə yanaşı, mədəniyyətin inkişafında sülhün rolunun öyrənilməsini nəzərdə tutur. Kampaniya çərçivəsində dünyanın müxtəlif ölkələrindən və beynəlxalq təşkilatlarından diplomatların, ictimai-siyasi xadimlərin, görkəmli mədəniyyət və incəsənət adamlarının, media nümayəndələrinin, elm xadimlərinin işğaldan azad edilmiş ərazilərə dəvət edilməsi və sülh çağırışlarının bu ərazilərin fonunda səsləndirilməsi planlaşdırılır.

Nazir qeyd etdi ki, dünyəvi və multikultural ölkə kimi Azərbaycanın mövqeyinin və sadiq olduğu dəyərlərin dünyaya düzgün çatdırılması olduqca vacibdir:




"Bu kampaniya eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş "Bakı Prosesi" təşəbbüsü və 2010-cu ildə BMT Baş Assambleyası çərçivəsində irəli sürülmüş Dünya Mədəniyyətlərarası Dialoq Forumu təşəbbüsünün qlobal miqyasda davamını və onun əsas ideyalarına sadiqliyimizi nümayiş etdirir. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatının Baş katibi 2017, 2018 və 2019-cu illərdə BMT Baş Assambleyasına təqdim etdiyi məruzələrində "Bakı Prosesi"ni xüsusi vurğulayaraq Dünya Mədəniyyətlərarası Dialoq Forumunu mədəniyyətlərarası və dinlərarası dialoq sahəsində BMT-nin əsas qlobal platformalarından biri elan etmişdir. Bununla əlaqədar "Mədəniyyət naminə sülh" kampaniyası mədəniyyəti qorumaq naminə sülhü təşviq etməyin əhəmiyyətini bir daha bəyan edərək dünyanı malik olduğu mədəni müxtəlifliyə sahib çıxmağa və onun təhlükəsizliyini vaxtında təmin etməyə çağırır".

Anar Kərimov onu da əlavə etdi ki, "Mədəniyyət naminə sülh" kampaniyası beynəlxalq qurumların və xarici ölkələrin, yerli və beynəlxalq qeyri-hökumət təşkilatlarının, biznes qurumlarının qoşulması üçün açıqdır: "Bu qlobal layihə çərçivəsində mədəni irsin vəziyyətinə dair sərgilər, sülhə çağırış aksiyaları, elmi və ədəbi müsabiqələr, sosial media, foto və video, film, musiqi və digər audiovizual layihələrin həyata keçirilməsi nəzərdə tutulur".

BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinos tədbirin əhəmiyyətindən danışdı, dünyada sülhün, təhlükəsizliyin qorunmasında birgə çalışmağın zəruriliyini qeyd etdi: "Dünya pandemiya böhranı və onun iqtisadi nəticələri ilə üzləşdi. Biz gələcək üçün yeni yol tapmalı, birgə yaşamalıyıq. Azərbaycan bu yeni təşəbbüslə müraciət etdi və mən buna dərhal reaksiya verdim. Biz bu günün reallığına və problemlərinə cavab vermək üçün yeni mexanizm və alətlər tapmalıyıq. Biz daha yaxşı cəmiyyət qura, birgə sülh içində yaşaya bilərik".

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın inkişafının şahidi olduğunu söyləyən Migel Angel Moratinos dedi: "Bu gün mənim üçün həm də xüsusi gündür, Azərbaycan öz torpaqlarını azad etdikdən sonra Prezident İlham Əliyevlə görüşdüm. Mən ümid, ləyaqət, sevinc hisslərinin şahidi oldum. Azərbaycanın dövlət başçısı ilə konstruktiv müzakirəmiz, dialoqumuz oldu. O, ölkənin tarixində yeni səhifənin açıldığını dedi. İnanıram ki, Azərbaycan üçün yeni səhifə, gələcək qarşıdadır".

Sonra diplomatik korpus və KİV nümayəndələrini, habelə digər tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırıldı.

Sonda Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə təqdimat iştirakçılarına təşəkkür etdi, gələcəkdə layihənin fəaliyyət planının təqdim ediləcəyini diqqətə çatdırdı.

Xatırladaq ki, Mədəniyyət Nazirliyinin beynəlxalq tərəfdaşlarla birgə "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasına başlaması barədə 2021-ci ilin aprelində ictimaiyyətə məlumat verilmişdi.

**LALƏ**

# "Bu təşəbbüs bir platformaya çevrilməlidir"

İyunun 23-də "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyasının təqdimat mərasimindən əvvəl mədəniyyət naziri Anar Kərimov, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos və Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə jurnalistlərə açıqlamalar verdilər:

**Mədəniyyət naziri Anar Kərimov:**

- "Mədəniyyət naminə sülh" qlobal kampaniyasına start veririk. Bizim üçün tarixi bir hadisədir. Bu tarixi hadisədə bizə dəstək olacaq BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos ölkəmizdə səfərdədir. O, Füzuli və Ağdama səfər etdi, orada ermənilərin törətdiyi vəhşilikləri gördü. Gördüklərindən çox təsirlənmişdi. Təqdim etdiyimiz "Mədəniyyət naminə sülh" qlobal layihəmizin məqsədi də mədəni irsin dirçəlməsi, insanların doğma torpağına qayıdışı, yaşaması və sülhün bərqərar olması üçün bir çağırışdır. Azərbaycan bu kampaniya ilə bir daha da göstərir ki, baxmayaraq ki, Azərbaycan işğala məruz qalıb, abidələri dağıdılıb, yenə də dünyaya sülhlə çağırış edir. İnanırıq ki, sülhə çağırışımızı beynəlxalq təşkilatlar dəstəkləyəcək və bu dünyada qlobal bir hərəkata çevriləcək.

**BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos:**

- Bu gün həm Azərbaycan, həm BMT, həm də beynəlxalq ictimaiyyət üçün vacib gündür. Çünki bu gün yeni bir təşəbbüsə başlayırıq. Əlbəttə ki, yeni təşəbbüslər həmişə önəmlidir. Bu günün reallığına və problemlərinə cavab vermək üçün yeni mexanizm və alətlər tapmalıyıq. Bu gün təqdimatı keçirilən



"Mədəniyyət naminə sülh" layihəsi dünyada yeni bir təşəbbüsdür. Biz bilməliyik ki, çətin dövrlərin öhdəsindən necə gələ bilərik. XX əsr elm əsri idi, XXI əsrin əvvəllərini isə yeni təşəbbüslər və fərqli baxışlar, müsbət konsepsiyalar dövrü adlandırmaq olar. Bu təşəbbüs bir platformaya çevrilməlidir. Bir növ biz sizə ehtiram göstərib, sizdən də ehtiram gözləyirik mesajını verməlidir. Yeni diplomatik təşəbbüslər beynəlxalq gündəm yaradır və mən bu təşəbbüsü qlobal səviyyədə təqdim etməyi planlaşdırıram. İnnovativ konsepsiyaya görə mədəniyyət naziri Anar Kərimova təşəkkür edirəm.

**Mədəniyyət Nazirliyinin Aparat rəhbəri Vasif Eyvazzadə:**

- BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos ölkəmizə səfəri çərçivəsində Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin dəstəyi ilə "Mədəniyyət naminə sülh" kampaniyasına start verilir. Layihənin əsas ideyası sülh tərəfdaşları olan beynəlxalq qurumları, ölkələri, QHT-ləri sülh üçün səfərbər edib bu vasitə ilə mədəniyyətin bərpasını təmin etməkdir. Bilirsiniz ki, işğaldan azad olunan ərazilərimizdə mədəni irsimiz, tariximiz məhv edilib. Biz hesab edirik ki, bu ərazilərdə tarixi və mədəniyyəti bərpa etmək, eyni zamanda mədəni ruhu geri qaytarmaq üçün ilk öncə sülhü qurmaq lazımdır. Bu quruculuq prosesində də Azərbaycan dünyada yeni qlobal bir layihə ilə çıxış edir. Hazırda bu layihədə bir neçə tərəfdaşımız var – İCESCO, TÜRKSOY, Böyük Britaniyanın Sülh, Etimad və Sosial Münasibətlər İnstitutu, BMT Sivilizasiyalar Alyansı. Təqdimatdan sonra digər beynəlxalq təşkilatlarla da bu istiqamətdə müzakirələr aparılacaq. Gələcəkdə Azərbaycanın təşəbbüsü ilə yaradılan bu layihə postmüharibə dövründə olan regionlarda sülh prosesində real fəaliyyətləri özündə əks etdirəcək.

**L.AZƏRİ**





# Zəfər ruhlu 26 İyun

əvvəli səh. 1-də

Müzəffər Azərbaycan Ordusu 30 illik işğala son qoydu, ərazi bütövlüyümüzü bərpa etdi. Minlərlə igid Vətən övladının canı-qanı bahasına doğma Qarabağımıza, mədəniyyət beşiyi, qala-şəhərimiz Şuşaya qovuşduq. 2020-ci ilin 8 Noyabr Zəfəri şan-şərəf tariximizə qızıl hərflərlə yazıldı. Dekabrın 10-da Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradına bütün dünya şahid oldu. Bakıda yaradılan Hərbi qənimətlər parkı da Zəfərimizin tarixi nümayişinə çevrildi.

Bu il xalqımız 26 İyun – Silahlı Qüvvələr Gününü ilk dəfə Zəfər ruhu ilə qarşılayır. Ötən illərdə Qarabağ nisgili üzündən Ordumuzun təlimlərdə, ənənəvi paradlarda nümayiş etdirdiyi gücə, peşəkarlığa ürəkdolusu sevinə bilmirdik. 2016-cı ilin dördgünlük Aprel döyüşləri insanlarda müəyyən ümid işartıları yaratmışdı. Amma o, Zəfər adlı əsərin ilk cümləsi idi... Atalarımız demişkən, igidliyə meydan lazım imiş. Ordumuz Vətən müharibəsində döyüş meydanında hər zaman haqqında danışılacaq qeyri-adi qəhrəmanlığa imza atdı, mümkünsüzü bacardı.

Silahlı Qüvvələr Günü hər il mədəniyyət müəssisələrində müxtəlif layihələr, təqdimatlarla qeyd olunur. Əlamətdar gün ərəfəsində Azərbaycan Milli İstiqlal Muzeyinə yollandıq. İstiqlalımıza layiq Zəfərdən sonra 26 İyun münasibətilə muzeyin planları ilə maraqlandıq.

### 165 şəhidin şəxsi əşyaları...

Muzeyin direktoru vəzifəsini müvəqqəti icra edən Sədi Mirseyibli qeyd etdi ki, Silahlı Qüvvələr Günü münasibətilə məktəblilər üçün onlayn dərs keçiriləcək. Bundan başqa, bayram günündə paytaxtımızda fəaliyyət göstərən hərbi məktəblərin kursantlarının muzeyə ziyarəti gözlənilir.

Həmsöhbətim bildirdi ki, muzey tərəfindən bu tədbirlərlə yanaşı, 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələri ilə görüşlər də davam etdirilir: "Həmin keçirilən görüşlərdə şəhid ailələri tərəfindən qəhrəmanlarımızın şəxsi əşyaları muzeyimizə təhvil verilir. Bu günə kimi 165 şəhidin 3500-ə yaxın şəxsi əşyası (hərbi geyim, fotoşəkil, saat, telefon və s.) muzeyimizdə toplanılıb. Şəhid ailələri ilə görüşlər və qəhrəmanların şəxsi əşyalarının qəbulu bundan sonra da davam etdiriləcək".

Müsahibimlə söhbət edə-edə muzeyin Şəhidlər zalına keçirik. Zalda 218 Azərbaycan Milli Qəhrəmanının fotoları nümayiş olunur. Həmçinin zalda 35-ə yaxın Milli Qəhrəmanın şəxsi əşyaları yer alır.

Həmsöhbətim karantin dövründə muzeyləri də əhatə edən yumşalmadan sonra mədəniyyət ocağına gün ərzində ziyarətlərin artdığını deyir. Bildirir ki, ziyarət zamanı pandemiya şəraitinə uyğun olaraq Operativ Qərargahın qərar və tövsiyələrinə riayət edilir.

### "Tarix yazan qəhrəmanlar"

İstiqlal Muzeyindən ayrılıb üz tuturuq tariximizin daha bir möhtəşəm saxlanc yerinə. Artıq AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyindəyik. Muzeyə daxil olarkən ilk olaraq "Ermənistanın dövlət terrorizmi Azərbaycan fotoqraflarının obyektivində" adlı guşədə nümayiş olunan fotoşəkillər diqqətimizi çəkir. Yeddi azərbaycanlı fotoqrafın lentə aldığı həmin şəkillərdə işğaldan azad olunmuş rayonlarımızın hazırkı vəziyyəti və Vətən müharibəsi zamanı düşmən tərəfindən Gəncə şəhərinə və Bərdə rayonuna raket hücumları zamanı yaşanan ağrı-acı dolu hadisələr təsvir olunub. Qeyd edək ki, düşmən tərəfindən atılan həmin raketlərin qalıqları da muzeydə nümayiş etdirilir.

MATM-in elmi işçisi Sahibə Ələkbərova bildirir ki, muzey tərəfindən Vətən müharibəsi şəhidlərinə həsr olunmuş "Tarix yazan qəhrəmanlar" adlı layihə həyata keçirilir. Layihə çərçivəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Turizm və Menecment Universitetinin muzeyşünaslıq ixtisasında təhsil alan tələbələrin şəhid ailələri ilə görüşləri gerçəkləşdirilir: "Bu layihəyə mart ayından başlamışıq. Bu günə kimi bir neçə şəhid ailəsi ilə görüşlər reallaşıb. Layihənin əsas məqsədi gənclərin vətənpərvər ruhda böyüməsi və torpaqlarımızın azadlığı uğrunda şəhadət şərbətini içən qəhrəmanlarımızı tanıtmaqdır".

Həmsöhbətim vurğuladı ki, Silahlı Qüvvələr Günü münasibətilə Aprel döyüşləri şəhidi, kapitan Mühid Orucovun əkiz övladları muzeyə dəvət olunacaq. Görüşdə qəhrəman şəhid haqqında videoçarx nümayiş etdiriləcək. Sonda isə şəhidin övladlarına hədiyyələr təqdim ediləcək.

Sahibə xanım muzeyin "Yolumuz Qarabağadır. Qarabağ Azərbaycandır" layihəsi haqqında da məlumat verdi. Qeyd etdi ki, layihə çərçivəsində gənc muzeyşünasların Qarabağın həlelik qaçqın taleyi yaşayan muzeylərinə ekskursiyası təşkil olunur: "Layihə üzrə ilk olaraq Xocalı rayon Yalova kənd Tarix-Diyarşünaslıq Muzeyinə yollandıq. Füzuli Rayon Tarix-Diyarşünaslıq Muzeyi, muzeyin Bala Bəhmənli və Qarğabazar kənd filiallarında ekskursiyada olduq. Layihəmiz bundan sonra da davam edəcək".

***

Sənə yalnız Zəfər yaraşdığını sübut elədin, şanlı Ordum! Dillərdə dastan şücaətin gələcək nəsillər üçün vətənsevərlik, qəhrəmanlıq örnəyidir, Azərbaycan Əsgəri! Qələbə soraqlı bayramın mübarək!

**NURƏDDİN**

# Zəlimxan Yaqubun "Qarabağ şikəstəsi" kitabının təqdimatı

İyunun 24-də Xalq şairi Zəlimxan Yaqubun (1950-2016) "Qarabağ şikəstəsi" kitabının onlayn təqdimatı keçirilib. Tədbir Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət komitəsi və Beynəlxalq Türk Akademiyasının təşkilatçılığı ilə reallaşıb.

Təqdimatın aparıcısı, Milli Məclisin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı Qarabağdakı tarixi Zəfərimizdən sonra Xalq şairi Zəlimxan Yaqubun Qarabağ mövzulu çoxsaylı şeir və poemalarının toplandığı "Qarabağ şikəstəsi" kitabının nəşrini şəhidlərin, ustadın özünün ruhuna dərin ehtiram kimi qiymətləndirib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva ustad şairin Azərbaycan poeziyasında, ümumən mədəniyyətimizdəki yeri və mövqeyi haqqında ətraflı söz açıb: "Zəlimxan Yaqub Türk dünyasının hər yerində tanınan və sevilən şair idi. Onun ürəyi Türk dünyası ilə döyünürdü. Çünki hələ orta məktəbdə oxuduğum illərdən şairin iştirak etdiyi ədəbi məclislərdə onu dinləmişəm. Jurnalist kimi fəaliyyət göstərdiyim illərdə isə onun yaradıcılığı ilə daha yaxından tanış olmuşam. Onunla bağlı bir kitaba sığmayacaq qədər çoxlu şirin xatirələrim var".

Millət vəkili deyib ki, Qarabağ ağrı-acısı Zəlimxan Yaqubun yaradıcılığında mühüm yer tuturdu: "O inanırdı ki, xalqımız bu məğlubiyyətlə heç vaxt barışmayacaq, torpaqlarımız işğaldan azad olunacaq. Bu mənada, həmişə nikbin idi və bu nikbinlik yaradıcılığında da öz əksini tapırdı. Artıq onun arzuları gerçəkləşib".

Qənirə Paşayeva Zəlimxan Yaqubun Türk dünyası, türk coğrafiyası mövzusundakı şeirlərinin də ayrıca kitab halında hazırlanması təklifini səsləndirib. "Milli Məclisin Mədəniyyət komitəsi olaraq biz də bu işdə sizə dəstək olmağa hazırıq. Zəlimxan Yaqubun yaradıcılığına dövlətimiz də hər zaman böyük diqqət yetirib və inanıram ki, bundan sonra da belə olacaq", - deyə millət vəkili əlavə edib.

Mədəniyyət Nazirliyi Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin müdiri Akif Marifli qeyd edib ki, Zəlimxan Yaqub öz dəst-xətti ilə seçilən şairdir. Onun yaradıcılığında vətənpərvərliklə yanaşı, türkçülüyü tərənnüm və təbliğ edən şeirlər xüsusi yer tutur. Bu da özəlliklə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır: "Bu kitab Zəlimxan Yaqubun Qarabağ və Vətənin bütövlüyü uğrunda döyünən ürəyinin çırpıntılarıdır".

Beynəlxalq Türk Akademiyası prezidentinin müşaviri Füzuli Məcidli deyib ki, Zəlimxan Yaqubun yaradıcılığının məhsuldar dövrü Azərbaycanın müstəqillik və eyni zamanda torpaqlarımızın işğalı ilə bağlı çox çətin bir dövrə təsadüf edib.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov yaxın dostu olmuş Zəlimxan Yaqubun şəxsiyyəti, yaradıcılığı haqqında danışıb. Qeyd edib ki, Zəlimxan Yaqub poeziyamızda, xalqımızın tarixində sınaqdan keçmiş ideyaları XX əsrin sonlarında öz yaradıcılığında yaşadan, təbliğ edən şairdir. Zəlimxan Yaqub nə yazıbsa, Türk dünyası üçün, Azərbaycan üçün əhəmiyyətlidir.

Azərbaycan Yazıçılar Birliyinin katibi, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid Zəlimxan Yaqubla bağlı xatirələrini dilə gətirib, onun Azərbaycan ədəbiyyatında rolunu qeyd edib.

Kitabı nəşrə hazırlayan və redaktoru, Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu layihənin həyata keçirilməsində ona dəstək olan Namiq Yaqubova və üz qabığının rəssamı Azər Ziyadxana minnətdarlığını bildirib.

Sonra aşıqlardan Altay Məmmədli şairin "Qarabağ şikəstəsi" şeirini "Qarabağı", Elməddin Məmmədli isə "Qələbə" şeirini "Misri" saz havaları üstə ifa ediblər.

Tədbirdə ustad şairin öz ifasında məşhur "İlk andımız, son andımız Turandı" şeiri səsləndirilib.

Zəlimxan Yaqubun oğlu Bəhlul Yaqubov tədbirin təşkilində əməyi olan bütün qurumlara, çıxışçılara ailəsi adından təşəkkür edib.

# "Zəfər yazanlar" ədəbi müsabiqəsi elan olunub

Xaçmaz Regional Mədəniyyət İdarəsi "Zəfər yazanlar" ədəbi yazı müsabiqəsi elan edib. İyunun 21-də başlayan müsabiqədə iştirak etmək istəyən 18 yaşdan yuxarı müəlliflər 31 avqust 2021-ci il tarixinədək şeir, hekayə və pyeslərini idarənin əhatə etdiyi Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə təqdim etməlidir.

Hər iştirakçı yalnız bir janr üzrə əsər təqdim edə bilər. Bədii mətnlər Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan, Vətən müharibəsində iştirak edən qəhrəmanlarımızın şücaətini əks etdirməlidir.

Hər janr üzrə iki 1-ci yer, iki 2-ci yer, üç 3-cü yer müəyyənləşdiriləcək. Qaliblər Xaçmaz Regional Mədəniyyət İdarəsi tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaq. Müsabiqədə I, II, III yerlərə layiq görülən, eləcə də həvəsləndirici mükafat qazanan əsərlər "Zəfər yazanlar" ədəbi toplusu halında nəşr olunacaq.

8 Noyabr – Zəfər Günündə müsabiqə qaliblərinin mükafatlandırma mərasimi və "Zəfər yazanlar" toplusunun təqdimatı keçiriləcək.

# Səhnəmizin gözəl səsi

## "Tələbələrimə həmişə deyirəm ki, sizin səsiniz sizin kapitalınızdır, tamamən xərcləsəniz, müflis olarsınız"

Azərbaycan musiqi mədəniyyətində, klassik musiqinin, akademik vokalın təbliğ və populyarlaşmasında, sözsüz ki, onların – təkrarsız Fidan və Xuraman Qasımova bacılarının öz yeri var. İstər yüksək peşəkarlıq və istedada malik opera ifaçısı, istərsə də Azərbaycan xanımının incəliklərini bütünlükdə həyat tərzlərinə çevirən insanlar kimi bu qadınlar mükəmməl nümunə, yetişən ifaçı nəsli üçün əsl məktəbdirlər.

Təkrarsız səs və səhnə imkanlı bacılardan respublikanın Xalq artisti, "Şöhrət", "Şərəf", "İstiqlal" ordenli sənətkar, pedaqoq Xuraman Qasımovanın bu il növbəti yubileyidir.

Özünü ruhunun yaşında hiss edən və hələ də gəncliyinin məsumiyyətini qoruyan müğənni ilə budəfəki söhbətimiz ölkə başçısının imzaladığı sərəncamdan – "İstiqlal" ordeni ilə təltif olunmasından (5 iyun) sonraya təsadüf etdi.

Sevinc və duyğu dolu maraqlı söhbətimizdə özündən daha çox sənətdən, pedaqoji fəaliyyətdən, klassik musiqinin bu günündən danışan Xuraman xanım arzularını da bizimlə bölüşdü.

Könlündə azad Şuşanı görmək, o müqəddəs torpaqlarda tamaşaçı ilə görüş keçirmək arzusuna boy verən müğənni düşmən üzərindəki şanlı Qələbəmizdən də ürəkdolusu söz açdı.

– Bu neçə gündə saysız təbriklər almışam. Təbii ki, ölkə başçısı, möhtərəm Prezidentimizin belə böyük mükafata layiq görməsi, sənətsevərlərin, xalqımızın dəyərli nümayəndələrinin şəxsimə ünvanladıqları xoş sözlər məni hədsiz dərəcədə ruhlandırır. Hamınıza sonsuz təşəkkür edirəm, əziz sənətsevərlər. Bizi alqışlayan xalqım bu gün də bizə görə sevinirsə, deməli, həyatı boşuna yaşamamışıq. Bu gözəl münasibət məni, Fidan xanımı çox fərəhləndirir.

*– İnsan yaşa dolduqca həyata baxışı da dəyişir. Hər yeni ildən bir şey öyrənir və hər zaman yeni arzuların həyəcanı ilə yaşayır, deyilmi?*

– Bəli, tamamilə düzdür. Bu, möhtəşəm hissdir. Həyatı sevə-sevə, dolğun yaşamaq lazımdır ki, nə isə öyrənib ona qata biləsən. Hər yeni yaş insan üçün zənginlikdir. Birincisi, mən hər günümə, hər anıma sevinirəm. Allahın bəxş etdiyi ömrü ona – Rəbbimə minnətdarlıqla yaşayıram. Düzdür, yaş artdıqca ömrün getdiyini də anlayırsan. Bu, öz yerində. Eləcə də zaman keçdikcə nələrisə, kimlərisə itirirsən. Bu da həyatın qanunudur. Ümumən hər ildən mən nə isə böyük mənəvi xəzinə qazanır, daha çox sevildiyimi anlayıram. Məhz bu hiss də məni xoşbəxt edir. Baxın, bu ilimdən, bu yubileyimdən də unudulmaz xatirələr danışacağam. Həm dövlətimin rəhbərliyinin, həm də xalqımın diqqətini, hörmətini, sevgisini gördüm. Bizi sevən, dəstək olan xalqımıza minnətdarıq.

*– Yaşınızın qeyd olunmasını sevmədiyinizi bilirəm və alqışlayıram. Çünki zamana meydan oxumusuz.*

– Çox sağ olun. Hiss etdiyim yaşımdayam. Məsələn, mən özümü hələ də 40-45 yaşında hiss edirəm. Əsas odur ki, həyatı, insanları, arzuları, sənəti çox sevirəm. Hər yeni yaşımda da nə isə plan qurur, proqram tərtib edirəm. Düşündüyün fikirlər plan üzrə getməlidir deyə bir qanun yoxdur. Amma bütün hallarda buna cəhd etmək lazımdır. Allahıma şükür edə-edə bu yaşıma gəlmişəm. Tanrının bizi qoruduğunu daima hiss etmişəm.

*– Sənətdə hər kəs üçün müəyyən olunmuş zirvə var və siz artıq oradasınız. Amma yenə də planlardan, arzulardan, yeniliklərdən ürəklə, sevinclə danışırsınız. Çoxdur planlarınız?*

– Əlbəttə, var və hamısından öndə səhnə durur. Gənc nəsil, tələbələrim, onların karyerası, sənətdə uğur qazanması məni daha da həvəsləndirir, gördüyüm işə, məsuliyyətli pedaqoji fəaliyyətə fasiləsiz davama sövq edir. Bildiyiniz kimi, ikimiz də Bakı Musiqi Akademiyasında Solo oxuma kafedrasının professoruyuq, xeyli sayda yetirməmiz var. İfaçılıq sənətinə gələn yeni adlarda bizim də payımız az deyil. Sənət var və daim yaşayacaq! Deməli, onu təmsil edənlər də artmalıdır. Əsl istedada malik olanlar yaxşı yetişərək bu yolu davam etdirməlidirlər. Mənim plan dediyim gələcək hədəflərin əsasında da məhz bu durur.

*– Pedaqoji iş ağır və uzun prosesdir. Siz yorulmadan, illərdir bu işi icra edirsiniz.*



– Ağır və gözəl işdir. Ümumən öyrətmək, onun bəhrəsini görmək izaholunmaz dərəcədə gözəl hissdir. Bu işdə də mənim yolgöstərənim əziz bacım Fidan xanım, eləcə də yanımda çiyin-çiyinə çalışan həmkarlarım, kafedrada, akademiyada dəyərli dostlarımdı. Orada çox gözəl mühit, yaradıcı, məhsuldar heyət var. Biz birlikdə ən yaxşı səsləri qoruyaraq və akademik ifa səviyyəsinə çatdıraraq səhnəmizə qazandırmaq istəyirik.

*– Gənclərdən söz açmağınız yaxşı oldu. Yəqin müqayisəni də ən yaxşı siz apara bilərsiniz. Ümumən akademik musiqiyə maraq varmı? Hərçənd tez populyarlaşmaq və pul qazanmaq əsl sənətə meyilə də ziyansız ötüşməyib.*

– Yaxşı məqama gəldik. Mən bu məsələyə bir az da geniş baxmağa çalışacağam. Baxın, son illər gənclər daha çox gəlir, səs, ifaçılıq sənətinə maraqlarını ixtisas kimi seçməklə göstərirlər. Amma hələ ki, bu sənətin nə qədər mürəkkəb və çətin olduğunu dərk etmirlər.

*– Yəqin sənətin parıltı və şöhrəti ön plana keçir...*

– Əvvəlcədən dərinə gedib, onları qorxutmaq istəmirəm. Onların həvəslərini qırmayaq, əksinə, daha da stimullaşdıraq. Amma ilk baxışdan ifaçılığa nə üçün – yəni siz deyən şöhrət, yoxsa istedad və sevgi ilə gəldiklərini bilmək olur. Mən yenə də bütün tələbələrə eyni sevgi və diqqətlə yanaşır, onlara bu sənəti dərinliyinədək öyrətməyə çalışıram. Zaman ötdükcə görünür ki, bu, asan məsələ deyil. Bilik, savad, musiqi duyumu, istedad vacibdir. Hə, bir də mühit, o ifaçının formalaşdığı mühit böyük önəm kəsb edir. Doğrudur, fitri istedadlı insanlar olur və onların ən böyük silahı ilahi vergidir. Amma onunla da təhsillərini, yorulmadan öyrənməklə, çalışmaqla inkişaf etdirməlidirlər.

*– Sənətin şöhrət vədindən savayı görmədiyimiz, görmək istəmədiyimiz üzü də olur...*

– Tələbələrimizə biz həm də bunu təlqin edirik. Səsdən doğru istifadə etməsən, onu qorumasan, asanlıqla itirə bilərsən. Demirəm ki, səsin pozular və ya tamaşaçıya xoş təsir bağışlamaz. Mən onlara təkcə pedaqoq, öyrədici kimi yox, çətinliklərlə müəyyən yol keçmiş ifaçı kimi də məsləhətlər verirəm. Hələ 6 yaşından balet dərsləri alarkən düşünürdüm ki, hansı sənət sahəsi ilə məşğul oluramsa, onu sevməliyəm və ən yaxşılarından olmağa çalışmalıyam. Bilirsiniz, sənət, əsl sənət məhz mübariz və yorulmaz adamları sevir. Özünə güvənən, işini gözəl bilən insan hər zaman güclüdür.

*– Müsahibələrinizin birində opera ifaçısı olmaq istəmədiyinizi demişdiniz. Hansı peşə sizi daha çox cəlb edirdi?*

– 17 yaşında opera müğənnisi olmaq arzusu xəyal da ola bilərdi. Niyə ki, istəməyim? Səsim də var idi. Ona rəğmən mən jurnalist olmaq istəyirdim. Ona görə də jurnalistləri çox sevirəm. Sizin də ağır işiniz var. Siz – KİV-lər olmasaydınız, bizi geniş tamaşaçı auditoriyası yetəri qədər tanımazdı. Mən bu gün tələbələrimizə də həmin sözü deyirəm: indi populyar olmaq daha asandır. İnternet var, müxtəlif kanallar, saysız saytlar, qəzetlər var. Amma bizim vaxtımızda bu imkanlar məhdud idi. Bu gün də iştirak etdiyimiz müsabiqələrdən, festivallardan, unudulmaz konsertlərdən videomaterialların olmamasına təəssüflənirəm. O vaxt belə imkanlar, xüsusilə səni müşayiət edəcək kameralar, operatorlar yox idi. Elə ölkələrdə çıxış edirdik ki, heç orada sənin gəldiyin respublikanı tanımırdılar. Sadəcə, SSRİ-dən gələn ifaçı kimi qəbul edirdilər. Bayaq çətinliklərdən danışdım, bir neçə hadisə yaddaşımdan gəlib keçdi. Təsəvvür edin, elə ölkələrə gedirik ki, orada SSRİ-ni qəbul etmir, oradan gələn nümayəndələrə də aqressiv münasibət göstərirdilər. Təbii ki, bu rejimə münasibət idi və onun diplomatiyası da məhz sənət üzərindən körpüyə hesablanmışdı. Odur ki, siyasətin yol tapmadığı ölkələrə sənətçilər gedirdi. Əsl sənətin sərhəd tanımadığını da məhz o səfərlərdə görür və sevinirdim. Xatırlayıram, elan olunur və iki azərbaycanlı qız səhnəyə çıxıb italyanca, ispanca, fransızca, ingiliscə mahnılar, romanslar, operalardan parçalar ifa edir. Zal maraqla dinləyir, heyrətlənir, alqışlayır. Onun yaşatdığı qürur izahsızdır. Eləcə də müsabiqələr, biz bacıların cığır açdığı, o çətin yollarla gedib çıxdığı və qalib olduğu müsabiqələr də var. Vətənə iştirak etdiyimiz heç bir müsabiqədən əliboş dönməmişik. İfaçılıq təcrübəsi və bacarıq bizim böyük opera səhnəsinə gəlməyimizə imkanlar açdı.

*– Xuraman xanım, sizin sənətə gəldiyiniz dönəmdə də akademik ifaçılıq geniş yayılmamışdı və daim təbliğ olunmasına ehtiyac var idi. Həmin vaxtlar bununla bağlı dövlət səviyyəsində müəyyən işlər də görülürdü. Bu təbliğata indi də ehtiyac var, yoxsa klassik, opera ifaçılığı müəyyən zümrəyə hesablanıb?*

> Xatırlayıram, elan olunur və iki azərbaycanlı qız səhnəyə çıxıb italyanca, ispanca, fransızca, ingiliscə mahnılar, romanslar, operalardan parçalar ifa edir. Zal maraqla dinləyir, heyrətlənir, alqışlayır. Onun yaşatdığı qürur izahsızdır.

– Klassik musiqinin daim təbliğata ehtiyacı var! Ümumən, peşəkar sənət təbliğ olunmalıdır. Ailədə, mühitdə, cəmiyyətdə musiqi, peşəkar, zövqlü, yüksək səviyyəli musiqi daim təbliğ olunmalıdır. Hesab edirəm bilik, musiqi insanın daxili aləmini zənginləşdirir, onun ruhunu saf saxlayır. Zövqlər müzakirə olunmur, amma yaxşı, peşəkar, zəngin musiqi dinləmək, onu seçmək də böyük bacarıqdır. Klassik musiqinin auditoriyası, operalara, simfonik musiqiyə, kamera ifaçılığına, balet əsərlərinə kütlənin münasibəti təkcə bizdə yox, ümumən dünyada böyük problemdir. Yeni formalı estrada, sintez, bir növ hazır musiqilər, yüngül ritmlər asanlıqla ön plana keçib, qulaqlara yol tapdı. Xüsusən yeni nəsil zövqünü bu yüngül, bəsit musiqiyə təslim etdi. Bizdə də o problemlər var. Təsəvvür edin, tələbə olmağa, belə əzəmətli musiqi, sənət tədrisi ocağında təhsil almağa gələn gəncdən hansı əsərdən parça ifa edəcəksən soruşursan və o da sənə cavabında yox, mən əsərdən yox, bəstəkardan yox, filan müğənninin repertuarından bu mahnını oxuyacağam deyir. Üzr istəyirəm, mən heç kimin zövqünə, danışıq mədəniyyətinə, dünyagörüşünə şübhə ilə yanaşmıram. Sadəcə, bir az insaf, ay gənc. Axı sən Bakı Musiqi Akademiyasında təhsil almağa gəlirsən. Elədirsə, sən bəstəkar nədir, əsər nədir, yaxşı bilməlisən. Məhz belə tələbələr, yaxud tələbə olmağa iddialı gənclər nə qədər istedadlı olsalar da, ilkin təəssüratımızı çətin dəyişə bilirlər. Yaşından asılı olmayaraq, hər kəs məşğul olduğu sahəni sevməlidir. Bu həm məktəb, həm də vergidir. Gözəl ifaçılar tək-tək yetişir. Ümummilli liderimiz Heydər Əliyev demişkən "Sənətkarlar çox olarsa, onların qiyməti olmaz". Belə ifaçılar, doğurdan da, örnək olmalıdırlar.




*– İndi pedaqoji fəaliyyətlə məşğul olan ifaçıların da sayı çoxdur. Maraqlıdır, hər ifaçıdan yaxşı pedaqoq olar?*

– Müəllim, pedaqoq, öyrətmən – bunlar çox dərin mənalı anlamlardır. Bu müqəddəs anlama asanlıqla nail olmaq mümkün deyil. Bizim vaxtımızda istər fəxri ad almaq, istərsə də səhnədə özünü təsdiqləmək elə də asan deyildi. Sağ olsun dövlətimiz, ifaçıları mütəmadi qiymətləndirir. Onlar qısa zamanda tanınırlar. Sonra da keçirlər pedaqoji işə. Əzizlərim, pedaqoji iş, öyrətmək çox çətin, ağır bir işdir. Gərək sən o qədər bilik və təcrübəyə malik olasan ki, səndən nə isə öyrənə bilsinlər. Bilmirəm nəzarətmi, yoxsa komissiyamı, nə isə bir peşəkar, ciddi mexanizm lazımdır. Bunu böyük, çətin yol keçmiş sənət adamları kimi dəfələrlə deyirik. Yaxşı olar ki, gənclər nə qədər imkan var, təcrübəli sənətkarlardan nə isə öyrənsinlər. Bu gün isə proses bir az başqadır və anlaşılan deyil. Dövlət şərait yaradır, ifaçı çox gənc yaşında fəxri adını alır, xaricdə təhsilə göndərilir, festival və konsertlərə yol açılır. Sonda nə olur? Onların ən böyük səhnəsi toy məclisləri olur. Tez-tez Amerikada, ay nə bilim, İngiltərədə konsert verdim, filan festivala qatıldım xəbərlərini eşidirik. Hanı afişan, hanı konsertinin lent yazısı, hanı mükafatın? Yoxdur, çünki yalan danışır və xaricdə çıxış etdiyi toyu, məclisi bizlərə konserti kimi təqdim edir. Olmaz! Əlbəttə, bu hamıya aid deyil, lakin belə hallar olur. Bir vaxtlar toy məclislərində ifa etmək üçün xüsusi "Azkonsert" adlı birlik var idi. Mədəniyyət Nazirliyi nəzdində idi. Həmin çıxışları da bu birlik təmin edirdi. Çünki qurumun solistlər, musiqiçilərdən və s. təşkil olunmuş ştatları var idi.

> Tez-tez Amerikada, ay nə bilim, İngiltərədə konsert verdim, filan festivala qatıldım xəbərlərini eşidirik. Hanı afişan, hanı konsertinin lent yazısı, hanı mükafatın? Yoxdur, çünki yalan danışır və xaricdə çıxış etdiyi toyu, məclisi bizlərə konserti kimi təqdim edir.

Oraya qəbul olunan musiqiçilər, ifaçılar da peşəkar idilər və böyük repertuarla toy məclislərini idarə edirdilər. Həmin konsert birliyi də ifaçıya qonorar verir və faiz alırdı. Bir çox ifaçılar toy məclislərində populyarlaşdılar. Bu forma toy sahiblərini də, ifaçıları da məmnun edirdi. Məncə, bu təcrübə məntiqli idi. Əvvəla, müxtəlif janrlarda fəaliyyət göstərən, bacarığı olan müğənnilər işlə təmin olunurdular. Bundan başqa, digər musiqi kollektivləri də var idi. Bu kimi kollektivlərdə çalışmaq üçün musiqi savadı çox önəmli idi. İndi də çox önəmlidir. Lakin orada çalışmaq üçün təminatı ali tədris ocağı diplomda qeyd edirdi və ya xüsusi müsabiqə elan olunurdu. İndi çox halda gənclər diplomu toy məclislərində, restoranlarda oxumaq üçün alırlar. Axı, mən səni restoran üçün yox, böyük salonlarda konsertlər, festivallar, müsabiqələr, opera səhnələrində əsas partiyaların ifaçısı kimi hazırlayıram. Arada adamın əməyinə heyfi gəlir. Xüsusən pandemiya vaxtı tədris prosesində. Təsəvvür edin, səs sənətindən onlayn dərs keçirsən. Sən burada boğularaq, yüksək səslə dərs aparırsan, tələbə orada. Nə onun necə oxuduğunu bilmirsən, nə də hansı xırdalıqlara vardığını ayırd etmirsən. Bu son birillik tədris lap bizi yordu. Mikrofona alışqanlıq da gəncləri məhv edir. Səslərini itirirlər. Tələbələrimə həmişə deyirəm ki, sizin səsiniz sizin kapitalınızdır və onu qədərində xərcləməlisiz. Tamamən xərcləsəniz, müflis olarsınız. O ki qaldı pedaqoq, müəllim olmaq – bu da mürəkkəb məsələdir. Bacarıq, peşəkarlıq, bilik, dərin təcrübə lazımdır ki, əslində, bu da vergidir. Bəzən yaxşı ifaçının da pedaqoji fəaliyyəti zəif olur.

*– Çalışdım ki, sizinlə yubiley söhbəti edim. Amma alınmadı. Təəssübünüz və peşə sevginiz yenə ön plana keçdi.*

– Əksi mümkün deyil. Çünki mənim adım da, hədiyyəm də, yubiley söhbətim də məhz sevdiyim işim, sənətimdir. Artıq elə yaş və statusdayam ki, bu və digər problemləri oxucu, tamaşaçı mənim də dilimdən eşitməlidir. Çox sağ olsunlar bizim musiqisevərlər. Onsuz da Fidan və Xuraman Qasımova bacılarını çoxdan qəbul ediblər, dəyərləndiriblər. Mən də öz vətəndaş, sənətkar mövqeyimi belə bildirməli idim. Gördüyümü, görmək istədiyimi bölüşməliydim. Suallarınızı bütün səmimiyyətimlə cavablandırmaq istədim. Düşünürəm ki, oxucular bunu hiss edəcəklər.

*– Nostalgiya ilə yaşayırsınız?*

– Bəli, mən onunla yaşayıram. Onu deyim ki, mən yaşlandıqca daxilən sanki böyüməmişəm. Uşaq kimi saf, hər şeyə inanan, kövrək və həssas Xuramanam. Yəqin bu da gendən, ailədən gəlir. Mən keçmişin xatirələri ilə yaşayır, valideynlərimi, uşaqlığımı, o dövrün sənət mühitini xatırlayır və sevinirəm ki, nə yaxşı ki bu belə olub. Bizim də həyatımız, maraqlı olsa da, yalnız gül-çiçəkdən ibarət olmayıb. Ağır, kədərli günlərimiz də olub və bunlardan da mərdliklə, qürurla çıxmağa çalışmışıq. Ələlxüsus da bacımla, ailəmizlə birliyimiz, həmrəyliyimiz heç zaman sarsılmayıb.

*– Opera səhnəmizdə, kinomuzda maraqlı, yaddaqalan çıxışlarınız olub. Hansı qəhrəmanınız sizə daha yaxındır? Yaxud hansı əsərdə, mahnıda ruhunuz rahatlıq tapır?*

– Mənim bütün qəhrəmanlarım mübariz və zərifdir. Onların hər birini də sevə-sevə yaratmışam. Ümumən irili-xırdalı bütün rollarım mənim üçün çox dəyərlidir, doğmadır. Çünki hərəsinin bir taleyi, bir tarixçəsi, bir səhnə ömrü var. Musiqilər də həmçinin. Daha çox xalq mahnılarımız, xüsusən də "Küçələrə su səpmişəm" ruhumu dilləndirir. Sözlərdəki gözəlliyə baxın: "Küçələrə su səpmişəm, yar gələndə toz olmasın"... Dərin sevgi və sayğı ilə.

**Həmidə NİZAMİQIZI**



# Bakı Musiqi Akademiyasının 100 illiyi ərəfəsində

## Onlayn görüş və konsert

İyunun 22-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) və Estoniya Musiqi və Teatr Akademiyasının təşkilatçılığı ilə BMA-nın 100 illiyi münasibətilə onlayn bağlantı və konsert keçirilib.

Əvvəlcə Xalq artisti, professor Yeganə Axundova çıxış edərək Prezident İlham Əliyevin 2021-ci il 26 may tarixində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyinin qeyd edilməsi ilə əlaqədar sərəncam imzaladığını və yubiley münasibətilə bir sıra tədbirlərin keçirildiyini və bundan sonra da davam edəcəyini bildirib.

Sonra Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti, professor Fərhad Bədəlbəyli, Estoniya Musiqi və Teatr Akademiyasının rektoru, professor İvari İlja videoformatla çıxış ediblər. Hər iki rektor Estoniya və Azərbaycanın dost ölkələr olaraq daim bir-birinin mədəniyyətinə hörmətlə yanaşdıqlarını vurğulayıblar.

Professor İvari İlja Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə təbrik sözlərini çatdıraraq, bu təhsil ocağının musiqi tarixində böyük rol oynamasını və dünyaca məşhur, görkəmli musiqiçilər yetişdirdiyini, böyük nailiyyətlər əldə etdiyini bildirib.

Xoş sözlərə və təbriklərə görə Estoniya Musiqi və Teatr Akademiyasının rektoruna və bütün kollektivinə dərin təşəkkürlərini bildirən F.Bədəlbəyli öz növbəsində İvari İljanın istedadlı bir ifaçı olduğunu vurğulayıb, həmkarını Azərbaycana dəvət edib.

Çıxışlardan sonra Estoniya Musiqi və Teatr Akademiyasının və BMA-nın tələbələri geniş konsert proqramı ilə çıxış ediblər.

# Azərbaycan tarixşünaslığının banisi

XIX əsrin birinci yarısında Azərbaycan maarifçi-ədəbi mühitində dərin iz qoyan şair, alim və ictimai xadim Abbasqulu ağa Bakıxanov bütün dövrlərdə xatırlanacaq zəngin irs yaradıb. O, dərin zəkası, ensiklopedik biliyi ilə öz dövründə rus və Avropa alimləri, söz, fikir adamları ilə bir sırada dayanıb.

Abbasqulu ağa II Mirzə Məhəmməd xan oğlu Bakıxanov 21 iyun 1794-cü ildə Bakının Xilə (indiki Əmircan) kəndində dünyaya göz açıb. Səkkiz yaşına qədər Bakıda yaşayıb. II Mirzə Məhəmməd 1802-ci ildə xanlıq taxtı uğrunda mübarizədə əmisi oğlu Hüseynqulu xana məğlub olur. Bundan sonra məcburən Qubaya, vaxtilə Fətəli xanın ona bağışladığı Əmsar kəndinə köçür. Gənc Abbasqulu ağa yarımçıq qalan təhsilini burada başa vurur. Ərəb, fars dillərini, ədəbiyyatı və ilahiyyatı dərindən öyrənir. Qafqaz canişini general Yermolov 1819-cu ildə onu Tiflis şəhərinə – Qafqaz Baş Hərbi İdarəsində Şərq dilləri tərcüməçisi vəzifəsinə dəvət edir. O, 26 il bu vəzifədə çalışır.

Abbasqulu ağa Bakıxanov məmur olmaqla bərabər, 20 ildən çox səmərəli elmi və bədii yaradıcılıqla məşğul olub. O həm də Azərbaycanda maarifçi realizmin inkişafında mühüm rol oynamış mütəfəkkir ədiblərimizdəndir. Müxtəlif illərdə yazdığı "Qanuni-Qüdsi", "Əsrarül-mələküt", "Təhzibül-əxlaq", "Eynülmizan", "Gülüstani-İrəm" kimi əsərləri onun ensiklopedik zəka sahibi olduğunu göstərir.

Bakıxanovun birinci elmi əsəri fars dilinin qrammatikasına aid "Qanuni-Qüdsi" ("Müqəddəs qanunlar") kitabıdır. Əsər kiçik, ancaq dərin məzmunlu girişdən, "Hərflər", "Kəlmələr" və "Cümlə" adlı üç fəsildən ibarətdir. Girişdə müəllif dilin yığcam elmi tərifini verib. Sonra əsəri nə üçün, nə kimi şəraitdə və hansı prinsiplər əsasında yazdığını bildirib.

Görkəmli alim coğrafiya və astronomiya elmləri ilə də maraqlanıb. Coğrafiya elminə aid fars dilində "Kəşfül-qəraib" ("Qəribə kəşflər") və "Ümumi coğrafiya" adlı iki kitab ərsəyə gətirib. İki fəsildən ibarət olan "Kəşfül-qəraib" Amerikanın Xristofor Kolumb (1446-1506) tərəfindən kəşf olunmasından və Yer kürəsinin qərb hissəsini təşkil edən bu qitənin vəziyyətindən bəhs edir.

Pedaqoji məsələlərlə də məşğul olan Bakıxanov uşaq və gənclərin tərbiyəsi ilə bağlı mülahizələrini "Təhzibül-əxlaq" ("Əxlaqın tərbiyəsi") əsərində qələmə alıb. Cəmiyyət haqqındakı fikirlərini sistemli şəkildə şərh edən müəllif gənclər arasında lazımi əxlaq normalarından söz açıb. Ədibin ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. 102 nəsihətin yer aldığı əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Sonra dövlət başçısına, ataanaya, böyüklərə ehtiramın vacibliyindən söz açılır, həyat və məişət məsələləri ilə əlaqədar əxlaqi nəsihətlər verilir.

Bakıxanovun tarix elmimizə bəxş etdiyi ən dəyərli hədiyyəsi isə uzun illər üzərində işlədiyi, 1841-ci ildə başa çatdırdığı "Gülüstani-İrəm" ("Cənnət gülüstanı") əsəridir. Məhz bu əsərə görə müəllif Azərbaycanın ilk tarixçi alimi hesab edilir. Akademik Nailə Vəlixanlı görkəmli alimlə bağlı məqaləsində yazır ki, A.Bakıxanov bu qiymətli tədqiqatının fars dili variantını 1841-ci ildə başa çatdırıb. 1844-cü ildə isə onun rus variantını hazırlayıb. Nəşrinin icazəsi üçün rus əlyazmasını Sankt-Peterburqa göndərir. Çar I Nikolay müəllifin 800 manat gümüş pul dəyərində brilyant üzüklə mükafatlandırılması, əsərinin isə Rusiya Elmlər Akademiyasına rəyə göndərilməsi barədə əmr verir. Akademiklər M.Brosse və B.Dornun müsbət rəyinə baxmayaraq, əsərin dövlət hesabına deyil, müəllifin şəxsi vəsaiti hesabına çap edilməsinə icazə verilir...

Azərbaycan və Dağıstan xalqlarının tarixindən bəhs edən "Gülüstani-İrəm" əsəri olduqca zəngin mənbədir. Müəllif əsəri yazarkən tarixi abidələri, qədim sikkələri, padşah və xanların fərmanlarını, dini kitabları, "Avesta"nı, səyyahların yol qeydlərini və s. dərindən araşdırıb. O, həmçinin gürcü və ləzgi salnamələrinə, qədim yunan, Roma, Azərbaycan, rus alimlərinin əsərlərinə istinad edib. Əsərin müqəddiməsində Azərbaycan və Dağıstan ərazilərinin qısa coğrafi təsviri də verilib. Qədim yunan, ərəb və rus mənbələrinə istinadən bu ölkələrin xalqlarının mənşəyi, dili və dinləri haqda maraqlı məlumatlar təqdim olunub. Əsərdə Nuhun tufanı, Yəcuc və Məcuc, skiflər, massagetlər, xəzərlər, Sasani hökmdarlarının Azərbaycandakı hakimiyyəti, İslam dininin yaranması, ərəb qoşunlarının Azərbaycana gəlməsi və s. yer alıb. Rusiya ilə İran arasında bağlanan Türkmənçay (1828) müqaviləsinin bağlanmasına qədər olan böyük bir tarixi dövr əsərdə əhatə olunub. Yeri gəlmişkən qeyd edək ki, A.Bakıxanov Türkmənçay müqaviləsinin imzalanması mərasimində tərcüməçi kimi iştirak edib.

Qubada "Gülüstan" adlı elmi-ədəbi məclisin (1835) təşkilatçılarından olan A.Bakıxanov "Qüdsi" təxəllüsü ilə Azərbaycan, ərəb və fars dillərində şeirlər yazıb. Yaradıcılığına diqqət yetirdikdə məlum olur ki, şairin vəziyyəti heç də yaxşı olmayıb. Onun şeirlərində zəmanədən acı-acı şikayətlər də əksini tapıb. Müəllif "Bəyani-hal" şeirində yazır:

*Günəş Şərqdən tulu edib*
*çıxan zaman səhərlər,*
*Ürəyimi min əzaba düçar edir*
*qəm, kədər.*
*Sübh kimi köynəyimi*
*parça-parça edib mən,*
*Odlu ahlar çəkirəm hey*
*bu yanıqlı ürəkdən...*

Başqa bir şeirində isə ictimai ədalətsizliyə qarşı çıxır. Çox şeyin öz yerində olmadığını bildirir. "Xəyalın uçuşu" poemasında isə xoşbəxtliyi uzaqlarda deyil, doğma vətəndə axtarmaq qərarına gəlir.




Bakıxanov "Yersiz iftixar", "Qurd və iliz", "Tülkü və qoyun" adlı alleqorik əsərlər də yazıb, rus şairi İvan Krılovun "Eşşək və bülbül" təmsilini dilimizə tərcümə edib.

Azərbaycan elmi-ədəbi fikrinin görkəmli nümayəndələrindən olan Abbasqulu ağa Bakıxanov 1847-ci ildə Məkkədən Mədinəyə gedərkən vəba xəstəliyinə tutularaq vəfat edib, Vadiyi-Fatimə adlanan yerdə dəfn olunub.

2014-cü ildə dövlət başçısının sərəncamı ilə böyük alim, mütəfəkkir və ədibin 220 illik yubileyi geniş şəkildə qeyd edilib.

**Savalan FƏRƏCOV**

# Bayrağımızı öpüb dərsə girərdi...

Otuz ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsi ilə nəticələnən 2020-ci ilin Vətən müharibəsində Siyəzən rayonundan da onlarla qəhrəman oğul şəhidlik zirvəsinə ucalıb. Onlardan biri də Mətləb Əkbərovdur.

Mətləb Zülfiqar oğlu Əkbərov 2001-ci ilin 21 yanvarında Siyəzən rayonunun Yenikənd kəndində dünyaya göz açıb. 2007-2018-ci illərdə kənddəki Vüqar Qasımov adına tam orta məktəbində təhsil alıb. 2019-cu ildə hərbi xidmətə yollanıb. Nizam-intizamına, uğurlu xidmətinə görə bir neçə dəfə təşəkkürnamə ilə təltif olunub. 2020-ci ildə əsgəri xidmətini başa vursa da, hərbə olan marağı onu yenidən ordu sıralarına qaytarır. Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq fəaliyyətini davam etdirir.

Sentyabrın 27-də Vətən müharibəsi başlayanda Mətləb də ön cəbhədə idi. Döyüşlərdə silahdaşları ilə birlikdə şücaət göstərir. Düşmənin illərdir möhkəmləndirdiyi mövqeləri qəhrəmanlıqla keçərək intizarda olan Vətən torpağını azad edirlər.

Oktyabrın 8-i Mətləb sonuncu döyüşünə atılır. Halbuki o da digər döyüş yoldaşları kimi yağının ayağını yurdumuzdan tamamilə kəsmək üçün axıra qədər getməyi arzulayırdı. Onun da hədəfi Şuşanın azad olunması idi. Ancaq həmin gün Füzuli rayonu istiqamətində gedən ağır döyüşdə qəhrəmancasına şəhid olur.

Atası Zülfiqar Əkbərov qeyd edir ki, Mətləb uşaqlıqdan milli rəqsə, gimnastikaya maraq göstərib: "Hər dəfə işdən evə gələndə görürdüm ki, həyətdə idmanla məşğul olur. Mətləb mənim tək oğlan övladım idi. Onunla bağlı çoxlu arzularımız var idi. Ancaq o, şəhid olaraq öz arzusuna çatdı. Vətən sağ olsun".

Anası İradə Əkbərova deyir ki, Mətləbin hərb sahəsinə olan istəyi, Vətənə olan sevgisi hər şeydən üstün idi: "Mən ona dedim ki, sən mənim tək oğlumsan. Hərbi xidmətini başa vurub başqa sahədə işləyərsən. Ancaq o, razı olmadı.



Mətləb uşaqlıqdan Vətənə bağlı idi. Hər gün məktəbə gedəndə üçrəngli bayrağımızı öpərək dərsə girərdi. Müəllimlərin də hərbçi olacağını, şəhadət şərbətini içəcəyini söyləyirdi".

Mətləb Əkbərov oktyabrın 9-da doğulduğu kənddə torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Ruhu şad olsun.

**NURƏDDİN**

# Vətən sevdalıların ömür yolu od-alovdan keçər

İkinci Qarabağ müharibəsində Vətən torpaqları uğrunda özünü fəda edib adını Azərbaycanın Zəfər tarixinə yazan igidlərdən biri də Cahid Şahiq oğlu Qəniyevdir.

Vətən sevgisindən güc alan, onun şərəfini uca tutan, uyuduğu torpaq insanların and yerinə çevrilən qəhrəmanımız 1994-cü ildə Lerik rayonunun Sors kəndində dünyaya göz açmışdı. Sonralar ailəsi Biləsuvar rayonuna köçür. Orta məktəbi bitirən Cahid müqəddəs amallar işığında müstəqil həyata qədəm qoyur. Əsgərliyə gedir. Düşmənlə üz-üzə, ön xətdə xidmət edir. İgid, cəsur Vətən keşikçisinin vətənpərvərliyi, torpağa sevgisi, dosta sədaqəti əsgərlərə nümunə göstərilir. Doğma Azərbaycanına oğulluq borcunu şərəflə, yerinə yetirib üzüağ evinə qayıdır. Amma Vətən torpaqlarının işğal altında olması ona rahatlıq vermirdi. 2014-cü ildə yenidən əyninə əsgər paltarı geyinir, düşmənə layiqli cavab verməkdən ötrü silaha sarılır.

Cahid Azərbaycan Silahlı Qüvvələri Təlim və Tədris Mərkəzinin gizir hazırlıq kursunu bitirir. Tank komandiri olur. İdarə etdiyi hərbi texnikanın sirlərini dərindən mənimsəyir, təlimlər zamanı çətin vəziyyətlərdən bacarıqla çıxır. Gizir Cahid Qəniyev 2016-cı ilin Aprel döyüşlərində şücaətlə iştirak edir, ağır döyüşlərdə belə düşmənin bağrına çat salır. İkinci Qarabağ müharibəsində də cəsur tankçı ön cərgədə idi.



Haqq savaşımızın qəhrəmanı Suqovuşan, Talış kəndləri istiqamətində işğalçılara sarsıdıcı zərbələr endirir, Vətən torpağının hər qarışı uğrunda əzmlə vuruşur. Sentyabrın 31-də od-alovun içində 26 yaşında şəhidlik zirvəsinə ucalır. Yaşadığı şərəfli ömür yolu Vətəninə, xalqına sədaqət simvoluna dönüb əbədiləşir.

Cahid ailəli idi, hələ bir yaşı tamam olmayan Fərid adlı oğlu Vətənə əmanət qalıb. Son danışığı zaman ailəsinə deyir: "Oğlum sizə əmanət, haqqınızı halal edin".

Savaş meydanında şücaət göstərən gizir Cahidin ölümündən sonra "Vətən uğrunda" medalına layiq görülməsi həm də onun Vətəninə ürəkdən bağlılığına bir nişanədir...

**Zəfər ORUCOĞLU**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**



"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC tərəfindən hazırlanmış "Bakı limanı" kitabı zəngin bir tarixə işıq salır. Azərbaycan və ingilis dillərində çap edilmiş kitab beş bölümdən ibarətdir.

# Bir şəhər, bir liman, bir də tarix...

## Bakı limanı keçmişdən bu günə

Kitabın ilk bölümündə Bakı limanının qədim və Orta əsrlər dövründən bəhs olunur. Azərbaycanın qədim yaşayış yerlərindən olan Qobustanın üst terrasında eramızdan əvvəl VI minilliyə aid mağara yaxınlığında aşkarlanmış daş lövhələr və qayalar üzərindəki qayıq təsvirləri həmin yerdə qədim limanın olduğunun sübutu kimi göstərilir. Eramızdan əvvəl IX əsrə aid Assuriya mixi yazıları olan gil lövhələr, Misir mənbələri, qədim yunan müəllifləri Miletli Hekatey (e.ə.VI əsr), Herodot (e.ə. V əsr), Aristotel (e.ə. IV əsr), Strabon (e.ə. I əsr), romalı müəllif Plinin (I əsr) qeydləri, habelə Homer və arqonavtlar dövrünə aid materiallar Bakı limanının əhəmiyyətini göstərən mənbələrdir. Eramızdan əvvəl 285-ci ildə Seləvkilər dövlətinin sərkərdə və dənizçisi Patroklun rəhbərliyi ilə tərtib edilmiş "Xəzər dənizinin peripli" (Xəzər dənizinin sahillərinin təsviri) əsərinin Xəzərin ilk xüsusi tədqiqatı olduğu diqqətə çatdırılır.

Nəşrdə yer alan mənbələr – X əsr ərəb səyyahları İbn Həvqəlin və əl-Müqəddəsinin qeydləri, Xəzərin "Bakı dənizi" kimi qeyd olunduğu Avropa xəritələri (1375-ci ilə aid katalon xəritəsi), azərbaycanlı coğrafiyaşünas alim Əbdürrəşid Bakuvinin, habelə Marko Polo (XIII əsr), Adam Oleari (XVII əsr), Afanasi Nikitin (XV əsr), Övliya Çələbi (XVII) və başqa müəlliflərin qeydləri Bakı limanının beynəlxalq əlaqələri haqqında təsəvvür yaradır. Bakının əsas liman olaraq müxtəlif dövlətlərlə ticarət əlaqələri bir çox tarixi sənəd və faktlarla da təsdiqlənir. Bu baxımdan Səfəvi hökmdarı I Təhmasibin 1564-cü ildə Şeyx Zahidi Bakı limanına birinci nazir təyin etməsi haqqında fərmanına, Böyük Britaniyanın "Rusiya kampaniyası"nın Rusiyadan Volqa – Xəzər yolu ilə İran və Azərbaycanla bağlanan müqaviləsinə diqqət çəkilir. Eyni zamanda I Pyotrun Bakını işğal etmək niyyəti ilə Xəzər sahillərinə yürüşü xatırladılır. Bakı buxtasının ilk xəritəsinin tanınmış rus naviqator və hidroqrafı Fyodor Soymonov tərəfindən 1719-cu ildə "Bakı körfəzi" adı ilə tərtib edildiyi bildirilir.

"Bakı limanı: kiçik limandan Rusiya imperiyasının ən böyük limanınadək (XIX əsr və XX əsrin əvvəlləri)" adlı ikinci bölümdə Xəzərdə suyun səviyyəsinin dəyişməsinin tədqiqi məqsədilə akademik Emiliy Lensin 1830-cu ildə buraya ezam olunması, imperator I Nikolayın fərmanına (1854-cü il 17 sentyabr) əsasən Bayıl burnunda hərbi limanın fəaliyyətə başlaması, 1859-cu ildə Bakı limanının dövrün tələblərinə uyğun tikintisinə start verilməsi, 60-cı illərdə Xəzər dənizində mayaklar sisteminin qurulması, "Xəzər dənizinin Atlası"nın tərtib edilməsi və digər maraqlı tarixi faktlar əksini tapır. Məlum olur ki, dünyada neft sənayesində bir çox ilklər Bakı limanında həyata keçirilib. 1911-ci ildə Rusiya donanmasında mövcud olmuş 9 teploxoddan 8-i Bakı limanında idi. Həmçinin 1902-ci il iyulun 21-dən rəsmi fəaliyyətə başlayan Bakı Ticarət Limanı İdarəsinin fəaliyyəti haqqında məlumat verilir.

Bu bölümdə Xəzər dənizində limanların qurulmasında, gəmiçiliyin təşkilində ilk azərbaycanlı peşəkar mühəndis Fətəli bəy Nəcəfqulu bəy oğlu Sultanovun (1845-1910) xidmətlərindən də bəhs olunur.

"Bakı limanı 1914-1968-ci illərdə" adlanan üçüncü bölümdə I Dünya müharibəsi və Azərbaycan Xalq Cümhuriyyəti dövrlərində, habelə sovet hakimiyyətinin 1920-1960-cı illərində limanın fəaliyyətini əks etdirən zəngin materiallar toplanıb. Bakı limanı Xəzər dənizində əsas, SSRİ-nin isə ən iri limanlarından biri olub. Onun tərkibinə Bakı körfəzi, yeni tikil-






miş Abşeron liman məntəqəsi, Pirallahı (Artyom) adasında yerləşən mayedaşıma liman məntəqəsi, Lökbatan yanalma körpüsü, Astara, Lənkəran, Port-İliç liman məntəqələri, Ələt körpüsü daxil idi. Neft Daşlarının yaradılması, Bakı-Krasnovodsk (indiki Türkmənbaşı) bərə xəttinin açılması ilə Bakı limanının quruluşu dəyişib.

Kitabın sonuncu bölümü "Bakı limanı XX əsrin sonu – XXI əsrin əvvəllərində" adlanır. Oxucu kitabda beynəlxalq nəqliyyat dəhlizlərində Bakı limanının rolu və potensialı barədə də geniş məlumat ala bilər. Nəşrdə Bakı limanının xronoloji tarixi də verilib.

Layihənin rəhbəri "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Taleh Ziyadov, redaktoru və koordinatoru hüquq elmləri üzrə fəlsəfə doktoru Pərvinə İsmayılovadır. Mətnin müəllifləri Nazim Ərəbov, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Səbuhi Əhmədovdur.

# 1881-ci ilə zəng...

## Aparatda "Nobel qardaşları"nın baş mühəndisidir

**Bu il Azərbaycanda telefon rabitəsinin yaradılmasının 140 illiyi tamam olur. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, yubileylə bağlı "Azərbaycan Telefon Rabitəsi 140" loqotipi hazırlanıb. Yubiley il ərzində silsilə tədbirlər həyata keçiriləcək.**

O cümlədən jurnalistlər arasında mövzu ilə bağlı müsabiqənin keçirilməsi, İKT-də xüsusi rolu olan qadınların mükafatlandırılması, rabitənin 140 illiyinə həsr edilmiş markanın, zərfin və xatirə nişanının hazırlanması nəzərdə tutulur. Rabitənin tarixi barədə sənədli filmin çəkilişi də görüləcək işlər sırasındadır.

Rabitəçi şəhid ailələri, qocaman rabitəçilər evlərində ziyarət ediləcək, rabitə sahəsində uzun müddət çalışan əməkdaşlar təltif olunacaq.

Xatırladaq ki, Azərbaycanda ilk telefon xətti 1880-ci ilin dekabr ayında "Qafqaz və Merkuri"



Paroxod Cəmiyyəti tərəfindən inşa edilib. Xətt cəmiyyətin "Naberejnaya" küçəsində yerləşən baş kontoru ilə Bakı limanında yerləşən "Kaspi" neft cəmiyyətinin kontorunu birləşdirib. 1881-ci ilin yanvar ayında "Nobel qardaşları cəmiyyəti" telefon çəkilişinə icazə almaq məqsədilə Bakı qubernatoru general-leytenant Pozenə müraciət edib və fevralın 18-də icazə verilib. Həmin il noyabr ayının 23-də uzunluğu 6 kilometr olan və "Nobel qardaşları cəmiyyəti"nin baş kontoru ilə sədr və baş mühəndisin evlərini birləşdirən ilk telefon xətti istismara verilib. Rəsmi olaraq bu xətt Azərbaycanda ilk telefon xətti hesab olunur və telefon rabitəsinin yaradılması 1881-ci ildən hesablanır.

# Nəcəf Rasimin sənət dünyası

Azərbaycan təsviri sənətinin XIX əsrin sonu – XX əsrin əvvəllərində inkişaf mənzərəsini formalaşdıran rəssamların yaradıcılığı yeni bədii-estetik xüsusiyyətlərlə zəngin olmuşdur. Onların bu dövrdə Avropa və rus təsviri sənət ənənələri ilə tanışlığı Azərbaycan təsviri sənətinin realizm bədii prinsipləri ilə inkişafına ciddi təsir göstərmiş oldu. Bu mənada Qeysər Kaşiyeva-Seyidbəyli, Bəhruz bəy Kəngərli, Abbas Hüseyn, İbrahim Səfi, Əkbər Kazım (Muğan), Əzim Əzimzadə və Nəcəf Rasimin adlarını çəkmək olar.

Haqqında söz açacağımız dövrün adı ictimaiyyətə az məlum olan rəssamlarından biri də Nəcəf Rasim (Nəcəfqulu Məmmədəli oğlu Nəzərli) olmuşdur.







Nəcəf Rasim (1899–1929) haqqında məlumat, demək olar ki, yox dərəcəsindədir. Oxuculara təqdim etdiyimiz qısa informasiya isə sənətşünas M.Nəcəfovun vaxtilə çətinliklə toplaya bildiyi faktlara əsaslanır. Elə rəssamın bizim dövrə gəlib çatmış bədii irsi də bir o qədər zəngin deyil. Sayı on beşə çatan qrafik mənzərələr hazırda Azərbaycan Milli İncəsənət Muzeyində qorunur...

Xızıda dünyaya göz açan və ilk təhsilini ailəsinin sonradan köçüb gəldiyi Bakıda molla məktəbində və "Nəşr-maarif" cəmiyyətinin təşkil etdiyi "Üsuli-cədid" məktəbində alan Nəcəfqulu 1910-cu ildə rəssamlıq sahəsində təhsil almaq üçün Peterburqa getmişdir. İki il orada sənətin sirlərinə yiyələnmişdir. Onun Rusiyanın "Şimal paytaxtı"nda hansı təhsil ocağında, yaxud şəxsi studiyada oxuduğu barədə də məlumatımız yoxdur.

Amma bəllidir ki, maddi çətinliklər üzündən 1912-ci ildə təhsilini yarımçıq qoyub vətənə dönən gənc rəssam əvvəlcə Bakıda, sonra isə Xızıda müəllim işləmişdir. O zaman fanatizmin təsirində olan insanlar incəsənət və maarif sahəsindəki fəaliyyətinə görə Nəcəfqulunu Xızıdan qovmağa cəhd göstərsələr də, bu, ölkənin sovetləşməsi dövründə Xalq Maarif Komissarlığının keçirdiyi tədbirlərdə onun yaxından iştirakına və bir rəssam kimi yaradıcı potensialının əyaniləşməsinə, əslində, kömək etmişdir. O, Bakıda tərtibat işlərində, təbliğat tramvaylarının, tikililərin interyerinin və eksteryerinin bəzədilməsində əhəmiyyətli fəaliyyəti olanlardan biri idi. Onun sovet dönəmində məşhur "İsmailiyyə" binasının fasadı üçün ornamental yazı bəzəklərini işləməsi də məlum olan faktlardandır. Müasirləri Nəcəfqulunun çəkdiyi mənzərələri dost-tanışları arasında yaydığını da bildirirlər. Rəssam ömrünün son illərini Qubada yaşamış və orada da vəfat etmişdir.

Bəhruz Kəngərli kimi qısa ömür sürən Nəcəf Rasim yağlı və sulu boya ilə çəkdiyi əsərlərlə təsviri sənət tariximizdə qalmağa haqq qazandığını təsdiqləmiş rəssamlardandır. Əksəriyyəti etüd xarakterli olan bu mənzərələrdə gənc rəssamın incə müşahidə qabiliyyətinə malik olduğu görünməkdədir. "Yelkənli qayıq", "Günəşli hava", "Çay kənarında", "Kənddə", "Aylı gecə", "Məscid", "Dəniz sahili", "Kənd yolu", "Payız", "Dağlar", "Kəndin payızı", "Arzu" və s. əsərlərində onun sulu boya texnikasının incəliyinə bələdliyi dəqiq duyulur.





Hər bir qrafik lövhədə rəssamın rənglərin parlaqlığını və təravətini qoruyub saxlaya bilməsini də bunun göstəricisi saymaq olar. "Yelkənli qayıq", "Aylı gecə" və "Günəşli hava" əsərlərində dəniz motivinə müraciət edən müəllif kompozisiyaya daxil etdiyi ayrıntılar – su, hava və qayıqlar arasında axıcı bir bədii əlaqə yarada bildiyindən görüntüyə gətirilənlər kifayət qədər cəlbedici və duyğulandırıcı təsir bağışlayır. Rəssamın gözümüzdə bir qədər də adiləşən məkanlara xüsusi diqqət yetirməsinin nəticəsidir ki, həmin yerlərin bələndiyi gözəllik işartıları yaddaqalan tutumda bədii görkəm almışdır...

Həyatının çox hissəsini kənddə – təbiətin qoynunda keçirən Nəcəf Rasimin yaradıcılığında gəzib gördüyü və heyranlıqla tamaşa etdiyi yerlərin bədiiləşdirilməsi geniş yer tutur. Yəqin ki, bunu da təbii hesab etmək olar.

Rəssamın yurdun payızına, kəndə uzanan dolanbac yola, onu yarı bölən çaya, dini tikiliyə, sahili dağlı-bağlı dənizə heyranlığının ifadəsi olan müxtəlif tutumlu mənzərələrdə insanları necə bir bir gözəlliklə əhatələndikləri ilə bağlı xəbərdar etmək istəyi duyulur. "Payız", "Kənd yolu", "Məscid", "Kənddə", "Dağlar", "Çay kənarında" və s. qrafik lövhələri bu qəbildəndir.

Qənaətimizcə, bu mənzərələrin təsirli görünməsinin kökündə onların hər birinin estetikasında rənglərlə tamaşaçısını duyğulandıra biləcək ovqat yaratmaq gücünün mövcudluğu durur. Yaradıcılığında realizm estetikasına tapınan rəssamın yuxarıda adlarını çəkdiyimiz əsərlərin bədii şərhində motivlərin inandırıcı təsvirinə üstünlük verməsi həm də müşahidə etdiyi təbiət gözəlliklərinin yaddaqalan obrazını yaratmaq istəyindən qaynaqlanır...

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

# "Təsadüf" nəticəsində heykəltəraş olan istedad

Müasir Azərbaycan heykəltəraşlığında öz yolunu tapan gənc tişə ustalarından biri də Elxan İsa oğlu Zeynalovdur. O, 11 aprel 1996-cı ildə Gəncə şəhərində anadan olub. Şəhərdəki M.Müşfiq adına 14 saylı tam orta məktəbdə oxuyub. Kiçik yaşlarından incəsənətə olan marağı və onu digər uşaqlardan fərqləndirən istedadı yaradıcı şəxs kimi formalaşmasında əsas amillərdən biri olur. 5-ci sinifdən Gəncə şəhər Uşaq yaradıcılıq mərkəzinə gedir, 8-ci sinifdən isə rəssam Yusif Hüseynovun emalatxanasında sənətin sirlərini öyrənir.

2014-cü ildə orta məktəbi bitirən Elxan İsa oğlu Zeynalov Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına rəngkarlıq ixtisası üzrə imtahan verir. Böyük uğurla nəticələnən imtahan sonrası ixtisas seçimində yaranan yanlışlıq nəticəsində həmin fakültədə təhsil ala bilmir və heykəltəraşlıq ixtisasına qəbul olur. Beləliklə, həyat Elxan Zeynalovu təsadüflər nəticəsində gələcəkdəki uğur və nailiyyətlərlə dolu fəaliyyətinə addım-addım aparır.



İlk başda ona çətin olacağını düşünsə də, bu sahəyə onda yaranan maraq, istək və inamı sayəsində uğurlar əldə edir. Gənc heykəltəraş bakalavr təhsilini Xalq rəssamı, professor Tokay Məmmədovun emalatxanasında alır. Tokay Məmmədovdan savayı, Əməkdar rəssam Azad Zeynalov, gənc heykəltəraş Nurlan Məmmədovdan dərslər alır, bir çox sərgilərdə uğurla iştirak edir. Bakalavr təhsilini başa vuran heykəltəraş diplom işi olaraq "İmadəddin Nəsimi" obrazını seçir. Elxan Zeynalov dahi şairimizin heykəlini yaradarkən üzərində necə böyük məsuliyyət hissi olduğunu dərk edərək, müxtəlif eskizlər hazırlayıb təqdim edir. Hazırladığı eskizlərdən biri təsdiqlənərək seçilir. O, dahi şairin həyat və yaradıcılığının kulminasiya anını seçərək, Nəsimini əlləri bağlı şəkildə edam kürsüsünə gedərkən təsvir edir. Mükəmməl plastika ilə hazırlanan obrazın simasında onun həyatının bütün mərhələlərini əks etdirən təsirli bir süjet ərsəyə gətirir. Şairin obrazı gərgin dinamika, ekspressiya ilə tamaşaçıya təqdim olunub. Bu da gənc heykəltəraşın istedadının göstəricisidir.

Elxan Zeynalov 2018-ci ildə bakalavr təhsilini başa vuraraq magistraturaya daxil olur. Elə həmin ildən pedaqoji fəaliyyətlə də məşğul olan heykəltəraşın yaradıcılığında yeni bir mərhələ başlayır. Magistr təhsilinə Xalq rəssamı, akademik Ömər Eldarov, Akif Əsgərov kimi görkəmli heykəltəraşlardan dərs alaraq davam edir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına həlak olan şəhidlərimizin obrazlarını yaratmağı qərara alır. Diplom müdafiəsində Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi



Allahverdi Bağırovun heykəlini hazırlayır. Heykəltəraş bu obrazı ərsəyə gətirərkən qəhrəmanı yaxından tanıyan birinci Qarabağ müharibəsi qazisi İlham Həsənovla məsləhətləşir. Beləliklə o, məğrur qəhrəman obrazı yaradır. Heykəlin Ağdam şəhərində ucaldılması nəzərdə tutulur.

Magistr diplomu müdafiəsindən sonra əsas məqsədi Milli Qəhrəmanların, şəhidlərimizin xatirəsini əbədiləşdirmək olur. Bu mövzuda 2016-cı ilin Aprel döyüşləri şəhidi Pənçəli Teymurovun, Bəxtiyar Hüseynovun, Vətən müharibəsində şəhid olan kapitan Həmid Cəfərlinin, Cəlil Cavadovun, Milli Qəhrəman Çingiz Qurbanov və Milli Qəhrəman, general Polad Həşimovun büstlərini hazırlayıb. Gənc tişə ustası bu mövzu ilə yanaşı, Xan Şuşinski, Hacı İsmayılov kimi tanınmış sənətkarların portret heykəllərini də ərsəyə gətirib. Hazırda gənc heykəltəraş Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tərbiyə müəssisəsində və Bakı İstanbul liseyində pedaqoji fəaliyyət göstərərək yaradıcılığına da davam edir.

**Ziyarət CABAROVA**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının əməkdaşı**

# Azərbaycan Rəngkarlıq Muzeyində ödənişsiz ustad dərsləri

Azərbaycan Rəngkarlıq Muzeyində rəssamlığa həvəsi olan 16 yaşdan yuxarı gənclər üçün "Özünü kəşf et" adlı ustad dərsləri davam edir.

Növbəti dərs iyunun 23-də Gülnarə Ələkbərlinin rəhbərliyi ilə "Linoqravür" mövzusuna həsr edilib. Sonuncu dərs isə iyunun 30-da Museyib Əmirovun rəhbərliyi ilə "Bakı – Mənim şəhərim" mövzularına həsr olunacaq.

Qeyd edək ki, ustad dərsləri ödənişsizdir. Təcrübəsindən asılı olmayaraq hər kəs dərslərdə iştirak edə bilər. Bütün ləvazimatlar muzey tərəfindən qarşılanır.



Yerlər məhdud olduğundan qeydiyyatdan keçmək zəruridir. Qeydiyyat çərşənbə axşamı – bazar günü saat 12:00-dan 20:00-dək aparılır.

## Xatirə təqvimi — 26–29 iyun

### Azərbaycan

**26 iyun 1922** – Əməkdar memar Şəfiqə Mikayıl qızı Zeynalova (1922-1979) anadan olub.

**26 iyun 1929** – Əməkdar elm xadimi, həkim-yazıçı Nurəddin Məmmədbağır oğlu Rzayev (1929 – 17.10.2011) Gədəbəy rayonunda doğulub. Türkologiya, tarix, ədəbiyyat və s. mövzularda elmi-publisistik məqalələrin müəllifidir.

**26 iyun 1939** – Musiqişünas alim, fəlsəfə elmləri doktoru, professor Babək Osman oğlu Qurbanov (1939 – 28.3.2019) Qazax rayonunda anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Türkiyədə Qaziantep Atatürk Universitetinin Türk Musiqisi Dövlət Konservatoriyasında çalışıb.

**26 iyun 1945** – Əməkdar incəsənət xadimi, kinooperator Valeri Sultan oğlu Kərimov (1945 – 9.3.1998) Bakıda doğulub. 1974-cü ildən "Azərbaycanfilm" kinostudiyasında işləyib. Çəkdiyi filmlər: "Alma almaya bənzər", "Arxadan vurulan zərbə", "Qızıl uçurum", "Sizi dünyalar qədər sevirdim" və s.

**26 iyun 1946** – Əməkdar artist Əli Məmməd oğlu Salahlı (Salayev; 1946-2005) Masallı rayonunda doğulub. Lənkəran Dövlət Dram Teatrının aktyoru olub.

**27 iyun 1951** – Əməkdar incəsənət xadimi, aşıq Əsəd Əhməd (Məhəmməd) oğlu Rzayev (1874, Tovuz - 1951) vəfat edib.

**27 iyun 2013** – Xalq artisti Siyavuş Məmmədağa oğlu Aslan (5.9.1935 – 2013) vəfat edib. Musiqili Komediya, Akademik Milli Dram teatrlarında çalışıb, kinoda ("Yol əhvalatı", "O dünyadan salam" və s.), televiziya tamaşalarında maraqlı obrazlar qalereyası yaradıb.

**28 iyun 1842** – Maarifçi, təbiətşünas alim, publisist Həsən bəy Zərdabi (Məlikov; 1842 – 28.11.1907) anadan olub. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzeti ilə Azərbaycanda milli mətbuatın əsasını qoyub. Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman, Bakı gimnaziyasının ilk müsəlman müəllimi olub.

**28 iyun 1914** – Xalq artisti Barat Həbib qızı Şəkinskaya (1914 – 13.1.1999) Şuşada doğulub. 1935-ci ildən Akademik Milli Dram Teatrının aktrisası olub, bir müddət Gəncə teatrında çalışıb. "Görüş", "O olmasın, bu olsun", "Onun bəlalı sevgisi" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**28 iyun 1925** – Xalq artisti Gülağa Allahverdi oğlu Məmmədov (1925 – 7.6.1994) anadan olub. 40 ildən çox Azərbaycan Televiziya və Radiosu Səid Rüstəmov adına xalq çalğı alətləri ansamblının solisti olub. "Dəli Kür", "Sən niyə susursan" və s. filmlərdə mahnıları ifa edib.

**28 iyun 1971** – Məşhur opera müğənnisi Eldar Tofiq oğlu Əliyev (1971 – 4.8.2020) Bakıda anadan olub. Bakı Musiqi Akademiyasında və İtaliyada vokal təhsili alıb. 1994-cü ildən 2005-ci ilədək Milanda "La Skala" teatrının solisti olub, Avropanın bir çox teatrlarının səhnəsində çıxış edib.

**29 iyun 1913** – Xalq şairi, tərcüməçi Nigar Xudadat bəy qızı Rəfibəyli (1913 – 7.10.1981) Gəncədə anadan olub. Lirik şeirləri ilə Azərbaycan poeziyasını zənginləşdirib, xarici dillərdən ədəbi nümunələri (F.Şiller – "Məkr və məhəbbət", A.P.Çexov – "Albalı bağı", E.L.Voyniç – "Ovod", A.Puşkin, M.Lermontov və b. şairlərin şeirləri) Azərbaycan dilinə çevirib.

**29 iyun 1958** – Əməkdar artist Elçin Qəzənfər oğlu Həmidov (1958 – 4.3.2011) Bakıda doğulub. Musiqili Komediya Teatrının aktyoru olub.

### Dünya

**26 iyun 1763** – İngilis rəssamı Corc Morland (George Morland; 1763-1804) anadan olub.

**26 iyun 1892** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1938) Perl Bak (Pearl Sydenstricker Buck; 1892-1973) anadan olub. Əsərləri: "Şərq küləyi, qərb küləyi", "Dağılan ev", "Böyük dalğa" və s.

**27 iyun 1940** – Aktyor, müğənni, Rusiyanın Xalq artisti Boris Xmelniski (1940-2008) anadan olub. "Robin Qudun oxları", "İgid cəngavər Ayvenqo" və s. filmlərdə çəkilib.

**27 iyun 1941** – Polşa kinorejissoru Kşiştof Keslovski (1941-1996) anadan olub. "Həyatın rəngləri", "Dekaloq" və s. filmlərin müəllifidir.

**28 iyun 1577** – Niderland (flamand) rəssamı Piter Paul Rubens (Peter Paul Rubens; 1577-1640) anadan olub. Mifoloji və dini mövzuda bir çox əsərlərin müəllifidir. Portret və peyzaj ustası kimi də tanınıb.

**28 iyun 1712** – Fransız yazıçısı və mütəfəkkiri, maarifçi Jan-Jak Russo (Jean-Jacques Rousseau; 1712-1778) anadan olub. "Yeni Eloiza", "Emil" romanları, fəlsəfi əsərlərin müəllifidir.

**28 iyun 1867** – İtalyan yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1934) Luici Pirandello (Luigi Pirandello; 1867-1936) anadan olub. Əsərləri: "Mərhum Mattia Paskal", "Qocalar və cavanlar" (romanlar), "Liola" , "Hər kəs özünə görə", "IV Henrix" (pyeslər).

**29 iyun 1798** – İtalyan şairi, filosof Cakomo (Giacomo) Leopardi (1798-1837) anadan olub.

**29 iyun 1900** – Fransız yazıçısı, şair Antuan de Sent-Ekzüperi (Antoine Marie Roger Vicomte de Saint-Exupery; 1900-1944) anadan olub. Peşəkar təyyarəçi olub. "Gecə uçuşu", "Balaca şahzadə", "Qəsr" romanları və s. əsərlərin müəllifidir.

**Hazırladı: Vüqar ORXAN**

# "Nizami və Nəvai irsinin mif və folklor qaynaqları"

## Elmi konfransda 60-dək məruzə dinlənilib

AMEA-nın Folklor İnstitutunun təşkilatçılığı ilə "Nizami və Nəvai irsinin mif və folklor qaynaqları" mövzusunda beynəlxalq onlayn elmi konfrans keçirilib.

Konfransın açılışında Folklor İnstitutunun direktoru, akademik Muxtar İmanov, AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxış edərək Türk dünyasının iki böyük söz ustadının yaradıcılığından söz açıblar.

Folklor İnstitutunun Folklor və yazılı ədəbiyyat şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Cəlal Qasımov "Nizami Gəncəvinin milli və ədəbi kimliyi", Dədə Qorqud şöbəsinin müdiri, filologiya elmləri doktoru Ramazan Qafarlı "Nizami və Nəvai "Xəmsə"lərində zaman və məkan vəhdəti", Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy "Nizami və Nəvai yaradıcılığında folklor ənənələri" mövzularında məruzə ediblər.

Özbəkistan Səmərqənd Dövlət Xarici Dillər İnstitutundan qatılan filologiya elmləri doktoru, professor Dilaram Salohiy "Şeyx Nizami və Əmir Nəvai epik şeirində folklor elementlərinin yeri", Özbəkistan Elmlər Akademiyası Əlişir Nəvai adına Dil və Ədəbiyyat İnstitutunun Folklor şöbəsinin müdiri, professor Mamatkul Jurayev "Əlişir Nəvainin əsərlərində "gül" və "ənqa" obrazlarının mifopoetik şərhi" mövzusunda çıxış ediblər.

"Dörd dahi xəmsənəvis: Nizami, Dəhləvi, Cami və Nəvai" mövzusunda çıxış edən Bakı Dövlət Universitetinin professoru Ramiz Əskər bildirib ki, Şərq ədəbiyyatında bir çox istedadlı şair "Xəmsə", hətta "Səba" yazıb. Lakin bu işi ən mükəmməl şəkildə yerinə yetirən dörd dahi xəmsənəvis vardır. Bunlar Nizami Gəncəvi, Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami və Əlişir Nəvaidir.

İki gün davam edən konfransda 5 bölmədə 60-a yaxın məruzə dinlənilib.

# Neftçilərin həyatına "Yaxından" baxış

## Səbinə Şıxlinskayanın rəsm və instalyasiya sərgisi

Bakı Müasir İncəsənət Muzeyində Bakı Höte Mərkəzi (Goethe-Zentrum Baku), Latviya Respublikasının və İsveç Krallığının ölkəmizdəki səfirlikləri və "Platform Art" təşkilatının birgə dəstəyi ilə Əməkdar rəssam Səbinə Şıxlinskayanın "Yaxından" adlı fərdi sərgisinin açılışı olub.



Müasir İncəsənət Muzeyinin direktoru Xəyyam Abdinov tədbirdə iştirak edənlərə minnətdarlığını bildirib və Səbinə Şıxlinskayanın yaradıcılığından söhbət açıb. "Səbinə Şıxlinskaya rəssamlıqda öz üslubu ilə seçilir. Biz şadıq ki, bu gün onun burada sərgisi açılır", – deyə o bildirib.

Səbinə Şıxlinskaya Müasir İncəsənət Muzeyinin direktoruna, muzeyin əməkdaşlarına və sərginin təşkilində əməyi olan hər kəsə təşəkkür edib: "Bu gün mən şadam ki, siz bu sərgidə iştirak edirsiniz. Mən bugünkü sərgini tək Azərbaycan deyil, bütün dünya neftçilərinə həsr etmişəm".

İsveçrənin Azərbaycandakı səfiri Müriel Peneveyre çıxış edərək bildirib ki, pandemiya şəraitində belə bir sərginin açılışı heç də asan deyil. Neft həyatımızın mühüm hissəsini təşkil etdiyindən bu sərgiyə maraq olduqca böyükdür.

Tədbirdə çıxış edən Latviyanın ölkəmizdəki səfiri Daynis Qarançs, İsveç səfiri Kristian Kamill rəssamın peşəkarlığını vurğulayaraq sərgini təqdir ediblər.

Sonra qonaqlar nümayiş olunan əsərlərlə tanış olublar.

"Yaxından" layihəsi müasir incəsənət əsərlərinin multimedia sərgisidir. Sərginin əsas mövzusu neft sahəsinə və neftçilərin həyatına həsr olunub. Sərgidə monumental rəsm əsərləri, video və səs instalyasiyaları təqdim olunub.

Sərgi iyulun 27-dək davam edəcək.

# "Son durnalar gedərkən"

## TÜRKSOY Kastamonuda qazax şairin kitabının təqdimatını keçirib



Türkiyənin Kastamonu şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən Qazaxıstanın tanınmış şairi, yazıçı və tərcüməçi Mukagali Makatayevin (1931–1976) anadan olmasının 90-cı ildönümü qeyd edilib. Kastamonuda şairin "Son durnalar gedərkən" kitabının təqdimatı və "Türk dünyasının mədəniyyət paytaxtları" fotosərgisinin açılış mərasimi keçirilib.

Memar Vedat Tek Mədəniyyət, Turizm və Sənət Mərkəzində keçirilən tədbirdə TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Kastamonu valisi Avni Çakır, bələdiyyə başqanı Rəhim Qalib Vidinlioğlu və digər rəsmilər iştirak ediblər.

Açılış nitqi söyləyən Düsen Kaseinov TÜRKSOY Daimi Şurası tərəfindən 2018-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" seçilən Kastamonuda keçirdikləri mədəni tədbirlərə daha birini əlavə etmək və doğumunun 90-cı ildönümü münasibətilə Qazaxıstanın tanınmış şairi Mukagali Makatayevi anmaq üçün bir araya gəldiklərini vurğulayıb. Bildirib ki, şeirləri türk dillərinə çevrilən Mukagali Makatayev ədəbiyyat dünyasında olduğu qədər qardaş ədəbiyyatların da qarşılıqlı təsirinə töhfələr verib.

Açılış nitqlərindən sonra kitabın təqdimat paneli keçirilib. Paneldə "Son durnalar gedərkən" kitabının redaktoru, Qırğızıstanın TÜRKSOY-dakı təmsilçisi, Xalq şairi Kocageldi Kultegin, Qazaxıstanın Almatı Vilayəti Mədəniyyət idarəsinin rəhbəri Marlen Kölebayev, şair və yazıçı Kənan Çarboğa, Mukagali Makatayevin oğlu Culdız Makatayev şairin həyatından, yaradıcılığından və ədəbi yolundan bəhs ediblər.



Tədbir Makatayevin şeirlərinin oxunması və Almatı Dövlət Süyinbay Filarmoniyasının solisti Beybit Musayev tərəfindən şairin şeirlərinə yazılmış mahnıların ifa edilməsi ilə başa çatıb.

Qeyd edək ki, "Son durnalar gedərkən" kitabında şairin şeirləri yeddi dildə verilib. Düsen Kaseinovun ön söz yazdığı kitabın Azərbaycan dili bölməsi şair Əkbər Qoşalı tərəfindən tərcümə olunub və nəşrə hazırlanıb.

Kitabın təqdimatından sonra Kastamonu Universitetində "Türk dünyasının mədəniyyət paytaxtları" fotosərgisinin açılış mərasimi olub. Sərgidə 2012-ci ildən TÜRKSOY tərəfindən "mədəniyyət paytaxtı" elan edilən şəhərlərlə bağlı fotolar yer alıb. Bu sırada 2016-cı ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olmuş Azərbaycanın Şəki şəhəri də var.

**Mehparə SULTANOVA**
**Ankara**

# Nizaminin hikmətli kəlamları Salvador və Meksika portallarında




Salvador Respublikasının "Literatura y poesna" ("Ədəbiyyat və poeziya"), Meksikanın "Mbs Literatura" ("Daha çox ədəbiyyat") ədəbiyyat portallarının "Facebook" səhifələri Dövlət Tərcümə Mərkəzi ilə əməkdaşlıq çərçivəsində dahi Azərbaycan şairi Nizami Gəncəvinin hikmətli kəlamlarının yayımına başlayıb.

Portallarda mütəfəkkir şairin ümumbəşəri dəyərləri əks etdirən müdrik sözləri, cəsarət, dostluq, xeyirxahlıq, zülm və ədalət haqqında kəlamları oxuculara təqdim edilir.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, Nizami Gəncəvinin 880 illik yubileyinə töhfə olaraq hazırlanmış materialı ispan dilinə mərkəzin ispan dili mütəxəssisi Aysel Əliyeva tərcümə edib.

# "Yağ kimi"

## Bakı komandası Ukraynanın yumor şousunda

Ukraynanın "Lüqa Smüxu" ("Gülüş Liqası") televiziya yumor şousunda Bakı şəhərini təmsil edən "Kak po maslu" ("Yağ kimi") komandası da iştirak edir.




Layihənin 8-ci mövsümündə ilk turda qeydiyyata alınan 109 komandadan 25-i ikinci tura keçib. Onların arasında Bakı komandası da var. Bu, 2018-ci ildən bəri Azərbaycanı beynəlxalq yumor arenasında təmsil edən yeganə kollektivdir.

"Komandamız gücləndi, yenidən formalaşdı və yeni mövsümə yeni ümidlərlə gedir. Komandamızın tərkibinə təcrübəli müəllif və "Planet Parni iz Baku" teatrının aktyoru Ələkbər Əliyev, həmçinin gənc istedadlı bloger Mark Kim daxil oldular. Komandanın "sütun"larından olan Səməndər Rzayev, Valeh Dayanov və Emil Dalivalov da yenilənmiş kollektivdədir. İnanıram ki, müvafiq dəstəklə komandanın ölkəmizi yüksək səviyyədə təmsil etmək şansı var. Hazırda növbəti mərhələdə ikinci turda uğurla keçmək vacibdir", - deyə komandanın kapitanı Cavid Şahbazbəyov bildirib.

# Beynəlxalq fotoqrafiya müsabiqələri

Birləşmiş Ərəb Əmirliklərinin Şərca (Sharjah) Media Bürosunun təşkilatçılığı ilə "Xposure Beynəlxalq Fotoqrafiya və Film Mükafatları 2021" müsabiqəsi elan olunub.

İştirakçılar müsabiqədə memarlıq fotoqrafiyası, dron fotoqrafiyası, mənzərə fotoqrafiyası, fotojurnalistika, portret, qısa film və hərəkətli görüntü, səyahət fotoqrafiyası və təbiət fotoqrafiyası kateqoriyaları üzrə yarışacaqlar.

Əsas qalib üçün 3 min dollar və rəqəmsal kamera, kateqoriya qalibləri üçün 1500 dollar və rəqəmsal kamera, kateqoriya üzrə ikinci yerləri tutanlar üçün isə 750 dollar mükafat təyin olunub.

***

Daha bir beynəlxalq fotomüsabiqə İtaliyanın Triest şəhərində yerləşən "dotART" mədəniyyət assosiasiyası tərəfindən elan olunub.

"Triest Foto Gənci 2021 Fotoqrafiya Müsabiqəsi"nin iştirakçıları foto seçimində sərbəstdirlər. Küçə fotoqrafiyası, memarlıq fotoqraflığı və sosial reportajlara üstünlük verilir, eyni zamanda şəhər mühitinə orijinal və fərdi baxışlar ilə xarakterizə olunan keyfiyyətli fotolar da arzuolunandır.

Müsabiqənin dörd yarımfinalçısı finala qatılmaq üçün 3 gün Triest şəhərində qonaq olacaq. Qalibə 500 avro məbləğində "Amazon" kuponu veriləcək.

# Dünyanın ən yaşamalı şəhəri

Yeni Zelandiyanın Oklend şəhəri 2021-ci ildə dünyanın həyat üçün ən yararlı yaşayış məskəni adını qazanıb. Böyük Britaniyanın "The Economist" jurnalının nəzdində fəaliyyət göstərən "Economist Intelligence Unit" (EİU) analitik bölməsinin apardığı araşdırma nəticəsində Oklend "Global Liveability İndex 2021" reytinqində birinci olub.



140 şəhərin yer aldığı reytinqində 2-3-cü yerlər Yaponiyanın Osaka və Avstraliyanın Adelaida şəhərləri tutub.

Mütəxəssislər dünya şəhərləri arasında həyatın keyfiyyətini bir neçə göstərici əsasında müəyyən ediblər. Buraya sabit inkişaf, mədəniyyət, ekologiya, səhiyyə, təhsil və infrastruktur kimi göstəricilər daxildir. Oklend 96 bal toplayıb. Global Liveability İndex 2021" reytinqində dünyanın 10 ən yaxşı şəhəri siyahısına Vellinqton (Yeni Zelandiya) və Tokio (Yaponiya), Pert (Avstraliya), Sürix və Cenevrə (İsveçrə), Melburn və Brisben (Avstraliya) də daxil edilib.

Reytinq müəlliflərinin qənaətinə görə, koronavirus pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər Asiya-Sakit okean regionu şəhərlərinin Avropa və Kanada meqapolislərini üstələməsinə imkan yaradıb. Oklend şəhərinin birinci yerə yüksəlməsinin əsas səbəbi yerli hakimiyyətin COVİD-19-la mübarizədə qazandığı uğurlar olub.

Siyahıda sonuncu yeri Dəməşq (Suriya) şəhəri tutub.

**CAVİD**

# Ölkəmiz ilk dəfə Annecy Beynəlxalq Animasiya Film Festivalında təmsil olunub

Azərbaycan dünyanın ən böyük animasiya kinosu müsabiqəsində – Fransanın Ansi (Annecy) şəhərində keçirilən 45-ci Beynəlxalq Animasiya Film Festivalında (Annecy International Animated Film Festival and Market – MİFA) təmsil olunub.



Beş gün (14-19 iyun) davam edən festivalda "Animafilm"in (Azərbaycanda 2018-ci ildən keçirilən festival) direktoru Rəşid Ağamalıyev, 3-cü "Animafilm"in qalibi olmuş Fidan Axundova və rejissor Durna Səfərova iştirak ediblər.

Fidan Axundovanın Fransaya səfəri və MİFA akkreditasiyası onun ötənilki "Animafilm" festivalının "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" mükafatını qazanması sayəsində mümkün olub. Xatırladaq ki, həmin mükafatın sponsorları Azərbaycandakı Fransız İnstitutu (IFA), Fransanın ölkəmizdəki səfirliyi və Annecy Beynəlxalq Animasiya Film Festivalı olub.

"Azərbaycan kinosu tarixində ilk dəfə animasiya filmimiz Annecy Festivalında müsabiqə proqramında iştirak etdi. Durna Səvərovanın "Fainanın sirri" filmi festivalın müsabiqə proqramında yarışdı. Onu da qeyd edim ki, "Animafilm" festivalı artıq ikinci dəfədir ki, MİFA animasiya bazarında təmsil olunur. Biz Azərbaycan və Fransa arasında çox önəmli animasiya proqramları hazırlamışıq. Bu barədə geniş məlumat veriləcək", – deyə "Animafilm" Beynəlxalq Animasiya Festivalının direktoru R.Ağamalıyev deyib.

Xatırladaq ki, 2021-ci ildə "Animafilm" festivalı Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutunun (İFA) tərəfdaşlığı və Annecy Beynəlxalq Animasiya Film Festivalının dəstəyi ilə "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" kateqoriyası üzrə mükafat təqdim edir. Bu kateqoriyada "Animafilm" festivalının qalibi 2022-ci ildə Fransada keçiriləcək Annecy Festivalına səyahət edəcək və MİFA peşəkar akkreditasiyası əldə edəcək.

Bakıda IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı oktyabrın 20-dən 24-dək keçiriləcək. Festivalda uşaqlar və böyüklər üçün çəkilmiş onlarla yerli və xarici animasiya filmləri təqdim ediləcək. Builki festivalın mövzusu "Əlillik" olacaq.

# "Xurmalar yetişən vaxt" mükafat qazanıb

Azərbaycanlı kinorejissor Hilal Baydarovun "Xurmalar yetişən vaxt" filmi iyunun 16-dan 22-dək Misirin İsmailiyyə şəhərində keçirilən 22-ci Beynəlxalq Sənədli və Qısametrajlı Filmlər Festivalının "Ən yaxşı sənədli film" nominasiyasında mükafata layiq görülüb.




Süveyş kanalının sahilində keçirilən mükafatların təqdimatı mərasimində Misir, Suriya, İtaliya kino tənqidçilərinin müsbət rəyini qazanmış filmə görə mükafat ölkəmizin Misirdəki səfirliyinin əməkdaşı Emil Rəhimliyə təqdim edilib.

Mərasimdə İsmailiyyə valisi Şərif Fəhmi Bişara, Misir Mədəniyyət Nazirliyinin müşaviri Xalid Əbdel Cəlil, tanınmış kinoaktyorlar və rejissorlar iştirak ediblər. Ərəb dünyasında sənədli və qısametrajlı filmlər üzrə ilk beynəlxalq müsabiqə olan İsmailiyyə kinofestivalında bu il 44 ölkədən ekran əsərləri nümayiş etdirilib. Onların 8-i müxtəlif nominasiyalarda mükafatlara layiq görülüb.

Qeyd edək ki, Hilal Baydarovun "Xurmalar yetişən vaxt" sənədli filmi indiyədək bir neçə festivalda iştirak edib. Rejissorun "Səpələnmiş ölümlər arasında" bədii filmi isə 2020-ci ildə 77-ci Venesiya Film Festivalında nümayiş olunub. Bu, müstəqil Azərbaycanın kino tarixində A kateqoriyalı festivalın əsas müsabiqəsində yer alan ilk bədii filmdir.

# Üzünü göstərməsə...

## Müəlliflik hüququ da olmayacaq

Britaniyalı rəssam Benksi növbəti dəfə simasını cəmiyyətə göstərmədiyi üçün çəkdiyi əsərlərin intellektual müəlliflik hüququndan məhrum olub.

Bu barədə "The Daily Telegraph" qəzeti Avropa İttifaqının Əqli Mülkiyyət İdarəsinin (EUİPO) iki qərarına istinad edərək xəbər verib.

Məlumatda qeyd olunub ki, budəfəki mübahisələrin səbəbi iki monoxrom qrafitti əsəri – "Bomba ilə qucaqlaşma" və "Aşiq olmuş siçan" olub. Beləliklə, son 10 ayda Benksi yaratdığı 6 əsərin əqli müəlliflik hüququndan məhrum olub. Rəssam artıq "İndi gülümsə", "Əlində radar tutan siçan", "Əlində çətir tutan qız" və "Gül tullayan" rəsmlərin şəksiz sahibi sayılmır. Yəni Avropa İttifaqı ərazisində istənilən şəxs bu rəsmlərdən pulsuz istifadə edə bilər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1149
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.